www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 may 2018-ci il Çərşənbə № 101 (6990) Qiymәti 60 qәpik

**Xəbər**

**"İrəvan qarışanda ona görə müharibə etmədik ki..."- səbəblər**

yazısı səh.9-da

**Gündəm**

**Paşinyan arzusuna çatdı - bundan sonra Ermənistanı nə gözləyir?**



"Onun düşünməsi üçün bir neçə ay vaxtı var"; düşmən ölkədə hökumət dəyişikliyinə Bakıdan reaksiyalar...

yazısı səh.8-də

**"Bəzi banklar bağlanacaq" iddiası**

yazısı səh.10-da

**DSK-lara oktyabrda seçkiyə hazırlaşmaq tapşırığı**

yazısı səh.13-də

**Dərman mafiyasına qarşı əməliyyatın mübhəmləri**

yazısı səh.7-də

**Ekspertlər Putinin növbəti 6 illik "srok"unu dəyərləndirdi**

yazısı səh.9-da

**Bakıya kim rəhbərlik etsin?**

yazısı səh.5-də

**Naxçıvanın 15 illik prokuroru vəzifəsində qaldı**

yazısı səh.7-də

**Qarabağ düyününü müharibə, yoxsa diplomatiya açacaq? - kritik gözlənti**

yazısı səh.11-də

**Tanınmış jurnalistlər Türkiyədə onu prezident görmək istəyir**

yazısı səh.12-də

**"Toyumdan 5 ay sonra müharibə başladı" - 96 yaşlı veteran**

yazısı səh.15-də

**Qızını erməniyə verən azərbaycanlı necə diaspor lideri olub...**

yazısı səh.12-də

# ERMƏNİ PREZİDENTİN MÜHARİBƏ XOFU - "ƏLİYEVİ ÇOX YAXŞI TANIYIRAM..."

Düşmən ölkədə hakimiyyət dəyişikliyi müharibə təlaşını azaltmaq əvəzinə artırıb; prezident Armen Sərkisyan yeni baş nazir Paşinyana Azərbaycan prezidenti haqda danışacaqmı?..



yazısı səh.5-də

## Tanınmış iş adamının deputat Azay Quliyevin adından şok fırıldağı - ilginc təfərrüat

"AF holdinq" və "Uğur 97" şirkətlərinin sahibi olan Azay Möhnətovun biznesini böyütmək, torpaq sahələri əldə etmək üçün QHT Şurası sədrinin adından spekulyasiyalar etməsi faktlarının sayı-hesabı yoxdur

yazısı səh.6-da



**Baş nazirin işdən çıxarılan müavini Elçin Əfəndiyev haradadır?**

yazısı səh.10-da



Azer Süleymanov

**Baş baytar həbs oluna bilər**

yazısı səh.3-də



**Hüseyn Abdullayevin 2-ci həbs həyatı-iztirab və göz yaşları...**

yazısı səh.4-də



## Müdafiə naziri Türkiyəyə gedir

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov mayın 9-da Türkiyənin İzmir şəhərinə səfər edəcək. Bu barədə "Report"a Müdafiə Nazirliyindən məlumat verilib. Azərbaycan müdafiə nazirinin rəhbərlik etdiyi geniş tərkibdə nümayəndə heyəti Türkiyədə keçirilən "Efes-2018" beynəlxalq təlimlərin yekun mərhələsi zamanı təşkil ediləcək Yüksək Səviyyəli Qonaqlar gününə qatılacaq.**

Qeyd edək ki, aprelin 11-də başlayan "Efes-2018" beynəlxalq təlimlərində Azərbaycan ordusunun yüzdən artıq hərbi qulluqçusu iştirak edir.

## Gələn həftə Yer kürəsində geomaqnit qasırğası olacaq

**Mayın 17-də Yer kürəsində G2 sinfinə aid geomaqnit qasırğasının olacağı gözlənilir. "Report" xarici mətbuata istinadən xəbər verir ki, mayın 18-də geomaqnit həyəcanlaşması artacaq.**

Bundan başqa, gələn ay da Yer kürəsində geomaqnit qasırğası olacaq. Belə ki, iyunun 2-də G1 sinifli qasırğa baş verəcək.

Xatırladaq ki, bu ilin ən güclü qasırğası aprelin 20-də qeydə alınıb.

## Patriarx Rusiyanın Azərbaycandakı səfiri vəzifəsinə namizədlə görüşüb

**Moskva və bütün Rusiyanın patriarxı Kirill Moskvada Rusiyanın Azərbaycandakı səfiri vəzifəsinə namizəd olan Nikolay Boçarnikovla görüşüb. "Report" Patriarxın saytına istinadən xəbər verir ki, Rus Pravoslav Kilsəsinin başçısı diplomata Bakı yeparxiyasının fəaliyyəti ilə bağlı məlumat verib.**

Tərəflər həmçinin Azərbaycanda kilsə-dövlət münasibətlərinin aktual məsələlərini müzakirə ediblər.

Qeyd edək ki, Kreml hələlik Rusiyanın Azərbaycandakı səfirini rəsmi olaraq təyin etməyib.

Daha əvvəl N.Boçarnikov Rusiyanın Qazaxıstandakı səfiri vəzifəsində çalışıb.




## Bakı aeroportuna dünyanın ən nüfuzlu mükafatı təqdim olunub

**Heydər Əliyev Beynəlxalq Aeroportu hava limanlarının auditi sahəsində ən nüfuzlu "Skytrax World Airport Awards"ın maksimal "5 Ulduz" statusuna layiq görülüb.**

AzərTAc xəbər verir ki, təntənəli mükafatlandırma mərasimi mayın 7-də Bakıda keçirilib. Mərasim çərçivəsində həmçinin Bakı hava limanının girişində yerləşən və onun 5 ulduz statusunu simvolizə edən stelanın açılışı baş tutub. Tədbir iştirakçıları eyni zamanda yeni aerovağzal kompleksi Terminal 1-də yaradılan şəraitlə də tanış olublar.

Qeyd edək ki, Heydər Əliyev Beynəlxalq Aeroportu ilə yanaşı bütün dünya üzrə bu ən yüksək statusa cəmi 8 aeroport layiq görülüb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Heydər Əliyev dövlət-din münasibətlərinin nümunəvi modelini yaratdı"-Əli Həsənov

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.**



© Trend News Agency

"Trend"in məlumatına görə, konfransda Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, müxtəlif dini konfessiyaların nümayəndələri, Milli Məclisin deputatları, din xadimləri və digər qonaqlar iştirak ediblər.

**Tədbirdə çıxış edən prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, Heydər Əliyev 95 il bundan əvvəl Tanrının Azərbaycan xalqına bəxş etdiyi bir lider idi:**

"O, nəinki özünün, ailəsinin, doğulduğu elin-obanın sonrakı taleyini müəyyən etdi, eləcə də Azərbaycan xalqının bugünkü inkişafının, bugünkü taleyinin müəyyən olunmasında pay sahibidir. Heydər Əliyev məhz o liderlərdən idi ki, Azərbaycan xalqının həm keçmiş, həm bugünkü, həm də gələcək taleyində önəmli nümunələr yaratdı və bu nümunələr ətrafında Azərbaycan xalqı yaşayır, fəaliyyət göstərir və cəmiyyətimiz dünyaya çoxsaylı nümunələr verir - tolerantlıq nümunəsi, ictimai-siyasi sabitlik nümunəsi, xalqlar, millətlər, dinlər arasında birgə yaşayışın sivil normalarının gözəl nümunəsini ortaya qoyur. Bu nümunələrlə biz fəxr edirik və fəxr etməkdə davam edəcəyik. Prezident İlham Əliyevin bu gün yürütdüyü kurs hər bir taleyüklü məsələnin həllində həmişə öz ətrafında ölkənin ziyalıları, dövlət və ictimai xadimləri ilə bərabər, din xadimlərini də birləşdirən Ümummilli Liderin yaratdığı o monolit milli-etnik birliyin nümunəsidir".

**Əli Həsənov qeyd edib ki, Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bütün vasitələrlə Azərbaycan dövlətini xilas etdi və onun qurtuluş missiyasını öz çiyninə götürdü:** "Əlbəttə, dövlətin təməlində milli birlik, ictimai-siyasi sabitlik və vətəndaşların iradəsi dayanmalıdır. Ona görə də Ümummilli Lider milli birlik, vətəndaş birliyi yaratdı. Bu vətəndaş birliyini də çox zərgər dəqiqliyi ilə seçdi. Bu vətəndaş birliyinin təməlində insanların dininə, dilinə, mədəniyyətinə sayğı dayanırdı. O vaxta qədər Azərbaycan cəmiyyətini müxtəlif xalqlar və etnik qruplar arasında mübarizəyə sürükləyən insanlar Azərbaycan xalqında ciddi milli-etnik qarşıdurma yaratmışdı. Heydər Əliyev bu qarşıdurmanı aradan qaldırdı və hər bir insanın dininə, etnik dəyərlərinə, mədəniyyətinə hörmətlə yanaşdı və bu əsasda milli-etnik monolitliyi yaratdı. Ümummilli Lider dövlət-din münasibətlərinin nümunəvi modelini yaratdı. Azərbaycanın bugünkü İslam dini modelinə və dini tolerantlığına baxın. Bizim dini modelimiz elə qurulub ki, inanclı insanlar dövlətin dünyəvi normalarına, dövlət isə inanclı insanların dini ayinlərinə müdaxilə etmir. Hər birinin öz yeri, öz çərçivəsi var. Bu qızıl ortamı ümummilli lider müəyyən etdi".

**Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycanda bütün dinlərin, mədəniyyətlərin nümayəndələrinə hörmətlə yanaşılır:** "Azərbaycan cəmiyyətində məzhəbçilik yoxdur, heç zaman ölkəmizdə sünni-şiə qarşıdurması olmayıb, ona görə ki, Azərbaycanda heç kimin qəlbində belə ayrı-seçkilik yoxdur. Ümummilli Liderin yaratdığı nümunə budur. Heydər Əliyevin yaratdığı çox nümunələri göstərmək olar".

**Tədbirdə digər çıxışlar da olub.**

## "Paşinyanın Şuşaya getdiyi yerdə qıçları qırılsın!"

**Ermənistanın yeni baş naziri Nikol Paşinyan Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ torpaqlarına səfər edəcək. Məqsəd isə Şuşanın işğalının 26-cı ilini qeyd etməkdir. Bundan başqa, yeni baş nazir işğal altındakı bölgədə yerləşən hərbi hissələrdə də olacaq.**

Dağlıq Qarabağın Azərbaycanlı icmasının sədri, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov modern.az saytına danışarkən Nikol Paşinyanın bu addımını belə dəyərləndirib:

"Nikol Paşinyanın Şuşaya getdiyi yerdə qıçları qırılsın! Hazırda Paşinyanın baş nazir kimi nə edəcəyini, bundan sonra hadisələrin hansı istiqamətdə davam edəcəyini demək mümkün deyil. Çünki Paşinyan gərək öz komandasını yığsın və mövqeyini bildirsin. Zamanla onun nə etmək istədiyini görəcəyik. Paşinyan, hər halda, Ermənistan xalqının nümayəndəsidir. Biz onun Serj Sərkisyan, ya da Robert Köçəryan kimi hərəkət edəcəyini, yoxsa siyasətini dəyişəcəyini bilmirik. Yeni baş nazir işğalçılıq siyasətindən əl çəkərsə, ermənilər qonşuluq etmək istəyəcəklər".

B.Səfərov qeyd edib ki, N.Paşinyanın əsas məqsədləri zamanla bilinəcək: "Bəs Paşinyan hara getsin? Türkiyəyə, ya Azərbaycana? Əlbəttə, o, xalqın arasında jest etməli, yalandan atılıb-düşməlidir".



## «Bakcell» gözdən əlil uşaqlar arasında şahmat və dama turnirinə dəstək verib

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti 25 aprel - 5 may 2018-ci il tarixlərində Bakı şəhərində keçirilən gözdən əlil uşaqlar arasında şahmat və dama turnirinə dəstək göstərib.**

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş şahmat və dama turniri Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat Məktəbində keçirilib. 40 nəfərdən artıq gözdən əlil uşaq iştirak etdiyi turnirin qalibləri Məmmədov Nahid (şahmat) və Əzizov Əzim (dama) oldular.**

**Turnirdə yaxşı nəticələr göstərmiş gənc istedadlı şahmatçı və damaçılara "Bakcell"dən dəyərli hədiyyələr təqdim edilib.**

**"Bakcell" şirkəti artıq bir neçə ildir ki, ölkəmizdə keçirilən uşaq şahmat turnirlərinə öz dəstəyini əsirgəmir. Özünün "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə Şirkət Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərir və xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərə yönəlmiş geniş miqyaslı layihələri həyata keçirir.**



## Elçibəyin 80 illik yubileyi ilə əlaqədar hökumətə müraciət edilib

**Mayın 8-də "Əbülfəz Elçibəy-80" İctimai Təşkilat Komitəsinin İşçi Qrupunun toplantısı keçirilib. Klassik Xalq Cəbhəsinin qərargahında baş tutan toplantıda İşçi Qrup öz iş planını təsdiq edib və iş planına uyğun olaraq görüləcək işlərlə bağlı müzakirələr aparılıb. Bununla bağlı komitə üzvü Əvəz Zeynallı musavat.com-a açıqlama verib:**

"Ötən həftələrdə keçirdiyimiz toplantılardan aldığımız qərarlarımız var idi. Həmin qərarlar üzərində fikir mübadiləsi aparıldı. Eyni zamanda Elçibəyin yubileyi ilə əlaqədar "Məhsul" stadionunda-açıq hava şəraitində kütləvi yubiley tədbirinin-mitinqin keçirilməsi, təntənəli yubiley tədbirinin keçiriləcəyi yer kimi Heydər Əliyev adına Respublika Sarayının ayrılması, həm də yazı müsabiqəsi keçirilməsi, Elçibəyin silahdaşlarından ibarət bir toplantının təşkil edilməsi, onun Türkiyəyə göndərdiyi ilk 50 nəfərdən ibarət tədbirlərin keçirilməsindən söz açıldı. Bununla bağlı müəyyən qərarlar qəbul edildi, bir qismi isə açıq qaldı. Xüsusən də Elçibəylə bağlı yazı müsabiqəsinin keçirilməsi təklifi üzərində qaldıq, hələ ki qərarlaşdırmadıq".

**Əvəz Zeynallı qarşıda keçirilməsi planlaşdırılan tədbirlərdən də söz açıb:**

"Silsilə tədbirlərimiz olmalıdır. Hazırda Elçibəyin bütün əsərlərindən ibarət 1000 səhifəlik böyük kitab çap mərhələsindədir. Həmin kitabın təqdimat mərasimini keçirməliyik. Elçibəyin şəkli olan döş nişanları, şəkillər, kepkalar və sairə hazırlanmalıdır. Yəni bu cür silsilə tədbirlərimiz çoxdur".

Əvəz Zeynallı qeyd edib ki, Əbülfəz Elçibəyin yubileyi ilə əlaqədar təmtəraqlı tədbir mərasimi keçirilməsi üçün ölkə rəhbərliyinə və müvafiq dövlət qurumlarına müraciət edilib.

❑ Xalidə GƏRAY
Musavat.com

**Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Baytarlıq Xidmətində yoxlamalar davam edir. Yoxlamalar zamanı ortaya çıxan faktlar xidmət rəisi Azər Süleymanovun çox ciddi cəzalandırılmasına səbəb ola bilər. Ötən sayımızda bu haqda redaksiyamıza daxil olan məlumatları diqqətə çatdırmışdıq.**

# Baş baytar həbs oluna bilər

## Əgər Azər Süleymanovun damazlıq heyvan maxinasiyası cinayət dosyesinə toplanarsa....

Bildirilirdi ki, son illərdə kəsim üçün Azərbaycana xaricdən gətirilən mal-qaranın xeyli hissəsi Azər Süleymanovun rəhbərlik etdiyi xidmətin verdiyi sənədlərdə damazlıq adı ilə rəsmiləşdirilib. Kəsim üçün gətirilən heyvanların damazlıq adı ilə rəsmiləşdirilməsinin səbəbi isə gömrük rüsumundan azad olunmasına hesablanıb və baş tutub. Beləliklə, dövlət büdcəsinə rüsum ödənilmədən ölkəyə kəsim üçün xeyli mal-qara gətirilib. Bu maxinasiyalardan itirən tərəf dövlətdir, dövlət büdcəsidir. Qazanan tərəf də ortalıqdadır.

Ölkəyə ət idxalının həcmi haqda rəsmi məlumatlar isə belədir. Təkcə 2017-ci ilin 10 ayı ərzində Azərbaycana 52 milyon 451 min dollar dəyərində 34 min ton ət idxal olunub. "Marja" Dövlət Gömrük Komitəsinin hesabatına istinadən xəbər verir ki, ət idxalı 2016-cı ilin 10 ayı ilə müqayisədə 20 milyon 343 min dollar artıb. 2016-cı ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana 32 milyon 108 min dollar dəyərində 28 min 728 ton, 2015-ci ilin eyni dövründə isə 15 milyon 75 min dollar dəyərində 11 ton ət idxal olunmuşdu. Beləliklə, son 2 ildə ət idxalının dəyəri 3 dəfədən çox artıb.



Bu artımda damazlıq adı ilə ölkəyə gətirilən mal-qaranın çəkisi göstərilmir. Gələn məlumatlar isə onu deməyə əsas verir ki, bu, o qədər də balaca rəqəm deyil. Az qala rəsmi statistik rəqəmlərə çatır. Bəs bunca saxtakarlıq təsdiqini taparsa, Azər Süleymanovu hansı cəza gözləyir. Müstəqil hüquqşünaslar deyirlər ki, ortada vəzifə saxtakarlığının olmasına dəlalət edən məlumatlar var. Bundan başqa, dövlət büdcəsindən külli miqdarda vəsaitin yayındırılması, rüşvət alma, vəzifə səlahiyyətlərindən sui-istifadə cinayətlərinin tərkibi görünür. Müvafiq araşdırma aparılsa və faktlar sübut və dəlillərlə bərkidilsə, Baytarlıq Xidmətinin rəisi bir neçə il müddətinə azadlıqdan məhrum edilə bilər.

Yada salaq ki, Nazirlər Kabinetinin qərarı ilə Azərbaycana idxal olunan damazlıq heyvanlar gömrük-idxal rüsumundan azad olunub. Ölkəyə mal-qara idxal olunarkən onu Dövlət Baytarlıq Nəzarəti Xidmətinin əməkdaşları müvafiq yoxlama-sənədləşdirmə işləri aparır, mal-qaranın damazlıq olub-olmadığına dair sənəd verirlər. Redaksiyamıza daxil olan xəbərdə deyilirdi ki, son illərdə kəsim üçün gətirilən minlərlə baş mal-qara xidmət əməkdaşlarına verilən rüşvət müqabilində damazlıq adı ilə rəsmiləşdirilib. Bütün bunlar təsdiqini taparsa, Azər Süleymanovun damazlıq heyvan maxinasiyası cinayət dosyesinə toplanarsa, xidmət rəisi həbs edilə bilər.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**



# "Exo"nun baş redaktoru bu gün dəfn olunacaq

**"Exo" qəzetinin baş redaktoru Rauf Talışinski vəfat edib.**

Bu barədə APA-ya Rauf Talışinskinin yaxınları məlumat veriblər. Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyindən verilən xəbərə görə, meyitin ilkin ekspertizasının nəticəsi olaraq R.Talışinskinin ürəyində kardioskleroz, ateroskleroz və beyində insult əlamətləri aşkar edilib.

Ölüm səbəbinin də bu xəstəliklər olduğu ehtimal edilir.

Yekun nəticə isə iki həftədən sonra laborator müayinələrdən sonra bəlli olacaq. R.Talışinskinin həyat yoldaşının hazırda Amerikada olduğu deyilir. Mərhum baş redaktor bu gün dəfn olunacaq.

Qeyd edək ki, T. Talışinski 16 noyabr 1956-cı ildə anadan olub. 1978-ci ildə Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib.

"Molodoy Azerbaydjana", "Vışka" və "İzvestiya" kimi qəzetlərdə çalışıb. 1990-cı ildən "Ayna"/ "Zerkalo" qəzetinin rəhbərlərindən biri olub.

27 yanvar 2001-ci ildən "Exo" qəzetinin baş redaktoru idi.

Rauf Talışinski "Əməkdar jurnalist" fəxri adına layiq görülüb.

# "ASAN xidmət"in fəaliyyəti zəifləyə bilərmi?

## Vüqar Bayramov: "Əksinə, "ASAN xidmət"in fəaliyyətinin daha da genişləndirilməsi gündəmdədir"

**Məlum olduğu kimi, ölkə başçısının sərəncamı ilə "ASAN Xidmət"in sədri İnam Kərimov kənd təsərrüfatı naziri təyin edildi. Artıq yeni nazir vəzifəsinin icrasına başlayıb və bir sıra qərarlar verib. Ölkədə nümunəvi qurum olan, hətta təcrübəsi bəzi dünya dövlətləri tərəfindən öyrənilən "ASAN xidmət" kimi bir quruma rəhbərlik etmiş şəxsin kənd təsərrüfatı naziri təyin olunması bu sahənin inkişafı üçün ümidləri artırır. İqtisadçı ekspertlər də bu təyinatı yüksək qiymətləndiriblər.**



Bəs görəsən, İnam Kərimovun "ASAN xidmət" rəhbərliyindən getməsi bu cür nümunəvi bir modelin çökməsinə səbəb ola bilərmi? Yeni rəhbərlik ASAN"ın imicinin qorunub saxlanılmasına və fəaliyyətinin gücləndirilməsinə nail ola biləcəkmi?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, "ASAN xidmət"in bu cür uğur qazanmasında İnam Kərimovun da rolu xüsusi vurğulanmalıdır:** "Etiraf etməliyik ki, "ASAN" Azərbaycanda bir model kimi özünü təsdiq edən faktiki olaraq yeganə qurum idi. Bu, ölkəmizdə yeganə qurumdur ki, bir sıra ölkələr onun təcrübəsini öyrənmək istəyir. Daimi olaraq verilən hesabatlarda da korrupsiyaya qarşı mübarizə tədbirlərindən biri kimi Azərbaycanda "ASAN xidmət"in təcrübəsi bir model olaraq təqdim olunur. O baxımdan təbii ki, "ASAN xidmət"in korrupsiyasız bir qurum olması, həmin modelin yaradılması ilə bir siyasi iradənin varlığı ilə bağlıdır. Eyni zamanda nəzərə almaq lazımdır ki, "ASAN" Azərbaycan prezidentinin təşəbbüsü ilə yaradılan bir qurumdur. Bu da birbaşa həmin qurumun şəffaf fəaliyyətinə, belə bir modelə çevrilməsinə təsir göstərən əsas faktordur. Təbii ki, bu qurumun rəhbərinin kim olması da əhəmiyyətli bir məsələdir. O baxımdan İnam Kərimovun "ASAN xidmət"ə rəhbərlik etməsi fonunda bu qurumun bir modelə çevrilməsini xüsusilə qeyd etmək lazımdır. Bu qurumun uğur qazanmasında onun rəhbərinin rolu da kifayət qədər böyük idi".

**İqtisadçının sözlərinə görə, "ASAN xidmət"in rəhbərinin Kənd Təsərrüfatı Nazirliyinə rəhbər vəzifəyə təyin edilməsi də müsbət haldır:** "Bu nazirlik göründüyündən daha böyük bir qurumdur və aqrar sektor da göründüyündən daha priorotet və məsuliyyətli bir sektordur. Qeyd etmək lazımdır ki, Azərbaycanda məşğul əhalinin 37 faizi kənd təsərrüfatında çalışır. Ölkəmizin qeyri-neft ixracatının təxminən 65 faizi bu sektorun payına düşür. Azərbaycanda idxalın əvəzlənməsində ən çox paya malik olan sektor aqrar sektordur. Praktik olaraq, postneft dövründə həm məşğulluğun artırılması, həm ərzaq təhlükəsizliyinin təmin olunması, həm də bütövlükdə iqtisadiyyatın diversifikasiyasında Kənd Təsərrüfatı Nazirliyi önəmli bir qurumdur və sözügedən istiqamətlər üzrə iqtisadiyyata təsir imkanları var. O baxımdan nazirlik kifayət qədər məsuliyyətli bir qurumdur. "ASAN xidmət"in rəhbərinin bu sahəyə rəhbər təyin olunması təqdirəlayiqdir. Burada sual yarana bilər ki, yeni nazir kənd təsərrüfatı üzrə ixtisaslaşmamış bir kadrdır. Ancaq mən hesab edirəm ki, bu o qədər də ciddi məqam deyil".

**V.Bayramov onu da diqqətə çatdırdı ki, bu sektorun əsas problemi şəffaflığın təmini və innovasiyanın daha dərindən tətbiq edilməsi ilə bağlıdır:** "Fermerlər üçün ən əhəmiyyətli məqam onların fəaliyyətinə sərbəst şəraitin yaradılmasıdır. Fermer sərbəst fəaliyyət üçün şərait istəyir, diskriminasiya olmadan lizinqdən istifadə etmək istəyir, güzəştli kreditlərə çıxış imkanı əldə etmək istəyir. Bunlar da birbaşa şəffaflıqla bağlı olan məsələlərdir. Yəni ilk növbədə kənd təsərrüfatında şəffaflığın təmin olunmasına ehtiyac var. Ənənəvi sektorlarda məhsuldarlığın aşağı olmasının səbəblərindən biri ekstensiv kənd təsərrüfatı metodlarından istifadə edilməsidir. Ölkə prezidenti son müşavirədə də bu məsələni bir daha vurğuladı. Hətta pambıqçılıq üzrə məhsuldarlığın aşağı olmasını da qeyd etdi. Bu sahədə məhsuldarlığın aşağı olmasının səbəblərindən biri həmin rayonlarda innovativ və intensiv metoddan istifadə edilməməsidir. Deməli, texnikadan daha çox istifadə edilməsinə, texnoloji gücün artırılmasına ehtiyac var. Yeni nazirin təyin olunmasında da əsas səbəb budur".

**V.Bayramov "ASAN xidmət"in fəaliyyətində mənfiyə doğru hər hansı dəyişikliyin olacağına ehtimal vermədiyini bildirdi:** ""ASAN" bir modeldir, onu neqativ istiqamətdə dəyişmək çox çətindir. Düşünmürəm ki, kənardan gələn bir şəxsin "ASAN xidmət"dəki mövcud vəziyyəti dəyişmək niyyəti olsun. Bir tərəfdən "ASAN xidmət" birbaşa ölkə başçısının diqqətində olan bir qurumdur. Digər tərəfdən də bu bir modeldir və Azərbaycan bu modelin qorunub saxlanılmasına çalışmalıdır. Heç bir halda "ASAN" modelinin neqativ istiqamətdə dəyişdirilməsinə, şəffaflığın aradan qaldırılmasına yol vermək olmaz. Bu qurumun rəhbərliyinə yeni təyin olunmuş şəxs də "ASAN xidmət"də işləyib. Lakin bununla belə, həmin qurumun mövcud fəaliyyətinin dəyişdirilməsi çətin məsələdir. Bu mənada güman etmirəm ki, rəhbər şəxsin dəyişməsi vəziyyətin pisləşməsinə gətirib çıxara bilər. Əksinə, "ASAN xidmət"in fəaliyyətinin daha da genişləndirilməsi və sahibkarların bu qurumun xidmətlərindən istifadə etməsi gündəmdədir".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Sabir Rüstəmxanlının yeni komitə sədrindən gözləntiləri

## “Görüləsi işlər həddindən çoxdur...”



**Prezident seçkilərindən sonra rəhbəri dəyişən qurumlardan biri də Diasporla İş üzrə Dövlət Komitəsidir. Xatırladaq ki, yeni sədr Fuad Muradovu kollektivə təqdim edərkən Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev komitənin fəaliyyətini kəskin tənqid etdi. Komitənin əvvəlki rəhbərliyinin heç bir iş görmədiyini deyən R.Mehdiyev quruma ayrılan vəsaitlərin təyinatından yayındırıldığını bildirdi. Bu isə yeni rəhbərlikdən gözləntilərin yüksək olduğunu, F.Muradovun üzərinə böyük məsuliyyət götürdüyünü göstərir.**

**Dünya Azərbaycanlıları Konqresinin sədri Sabir Rüstəmxanlı** bildirir ki, F.Muradovu Milli Məclisdən tanıyır: “Gənc və istedadlı adamdır, hiss olunur ki, dövlətçilik, idarəçiliklə bir çox məsələlərə yeni təfəkkürlə yanaşır. İnşallah ki, Diaspora Komitəsinin işində bu bacarıqları özünü göstərər. Diasporla iş məsələlərində görüləcək işlər həddindən çoxdur. Uzun illər Dünya Azərbaycanlıları Konqresinə rəhbərlik etmişəm. Bizdə belədir ki, bir çox diaspora təşkilatlarının işini gücləndirmək, onlara yardım etmək əvəzinə, təəssüf ki, bəzən paralel strukturlar, alternativlər yaratmaqla onların işini zəiflətməyə çalışırlar. Müxtəlif bəhanələrlə, guya qonşu dövlətlərin təsiri ilə və sair iddialarla. Bu baxımdan, diaspora təşkilatları ilə əlaqələr gücləndirilmir. Hazırda Avropadakı təşkilatlardan mənə çoxsaylı zənglər gəlir ki, orada 28 May Cümhuriyyətimizin 100 illiyi münasibətilə müxtəlif tədbirlər, yürüşlər təşkil etmək istəyirlər. Onlar Azərbaycanın dövlət atributlarını - milli bayrağımızı, gerbimizi, milli geyimləri özləri əldə edə bilirlər. Amma Cümhuriyyətimiz, onun fəaliyyəti ilə bağlı müxtəlif xarici dillərdə nəşr olunmuş maarifləndirici vəsaitlər, o dövləti quranların portretləri baxımından ciddi çətinlikləri var. Bizdən yardım istəyirlər. Mən bilmirəm Diaspor Komitəsi belə vəsaitləri çap edibmi, əllərində hazır materiallar varmı. Arzu edərdim ki, komitənin yeni sədri bunu nəzərə alsın, Avropadakı təşkilatlarımıza necə, hansı formada yardım etməyin yolunu tapsın”.

**Müsahibimiz deyir ki, Diaspor Komitəsi xaricdəki diaspora təşkilatlarına münasibətdə ögey-doğmalıq nümayiş etdirməməlidir:** “Təşkilatlara ilk növbədə mənəvi dəstək, yardım lazımdır. Maddi yardım bəlkə də sonuncu yerdədir. Xarici ölkələrdə dövlət adına təşkil olunan tədbirlərdə iştirak edilməlidir. Bura gələn diaspora nümayəndələrini qəbul etmək, dinləmək lazımdır. Xaricdə qurulan dərnəklərə nüfuzlu, işlək adamların rəhbər təyin olunmasına çalışmaq lazımdır, nəinki özününkünün. Çünki bir çox hallarda özününkü heç də nüfuz sahibi, xaricdəki soydaşlarımız arasında sözü keçən şəxs olmur. Bunu nəzərə almaq lazımdır: dərnəklər təbii şəkildə formalaşmalı, rəhbərlərini özləri seçməlidilər, biz də burdan onlara dəstək verməliyik. Bundan əlavə, dərnəklərə, insanlara iqtidara yaxın, müxalifətə yaxın deyə fərq qoyulmamalıdır. Onlar hamısı bizim soydaşlarımızdır. Əksinə, hamını diqqətlə dinləyib nə istədiyini öyrənmək, səbirli yanaşmaq lazımdır. Demirəm ki, düşmənçilik edən, Azərbaycan dövlətini aşağılayan şəxsləri. Bəziləri burada səsi çıxmır, buradan çıxandan sonra qəhrəmana dönür. Ümumiyyətlə, hesab edirəm ki, siyasi fəaliyyətlər dövlətə zərər vurmadan aparılmalıdır. Bu baxımdan, sağlam düşüncəli insanları iqtidar-müxalifət deyə bölmədən onlarla iş qurulmalıdır. İrandan, Türkiyədən gedən çoxlu sayda soydaşımız var ki, Azərbaycanın ən yaxın tarixi barədə məlumatsızdılar. Onların məlumatlandırılmasına ciddi ehtiyac var. Onlar üçün kitablar, məlumat broşürlərinin çap edilməsi lazımdır. Bu, həm də Qarabağ məsələsinə aiddir. Çoxlu dillərdə hazırlanmış əyani materiallar olmalıdır. Düzdür, təhsilli, məlumatlı gənclərimiz var - təhsil üçün gedənlər. Onlar nə danışmağı yaxşı bilirlər. Amma iş, çörək, qazanc dalınca gedənlər də var ki, bir çox hallarda Azərbaycanın müasir tarixi, elə Qarabağ dərdi barədə detallı məlumatlara sahib deyillər. Onlar üçün hazır materiallar olmalıdır ki, lazım gəldikdə istifadə edə bilsinlər”.

**Müsahibimiz deyir ki, Diaspor Komitəsi dünya türk diasporu ilə əlaqələri genişləndirməlidir:** “Azərbaycan nümunə göstərdi, türk diasporu ilə birgə qurultay keçirdi. Bu birliyi bütün dünya üzrə qurmaq lazımdır. Biz Avropa Konqresinə getdik, orada türk diaspora təşkilatlarından, dərnəklərindən bir nümayəndə belə yox idi. Bu mənada, dünya türk diaspora qurumları ilə əlaqələrin qurulmasına ciddi ehtiyac var. Gördüyunüz kimi, illərdən bəri yığılıb qalan və görülməli olan işlər çoxdur”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

**Keçmiş deputat, hazırda həbsdə olan Hüseyn Abdullayevin məşəqqətli həbs həyatı haqda məlumatlar yayılmaqdadır. Onun həbsə 2-ci “gedişi” haqda heç də xoş olmayan məlumatlar gəlir. Bildirilir ki, birinci dəfə həbsə alınanda sərgilədiyi davranış bir qədər də emosionallaşıb. Hüseyn Abdullayevin 4 divar arasında ağlayıb-sızladığı, kamerasının qapısında addım səsləri eşidərkən qışqırıb-bağırdığı deyilir.**



# Hüseyn Abdullayevin 2-ci həbs həyatı-iztirab və...

## İddia olunur ki, sabiq deputat “içəri”də ağlayır, anası səlahiyyət sahiblərindən imdad diləyir

Bununla belə, Hüseyn Abdullayevin yaxınları, anası onu köhnə əlaqələr hesabına azad etdirəcəklərinə ümidlərini itirmirlər.

Ən müxtəlif vəzifə sahiblərinin qapısını döyüb imdad diləyir, onun bağışlanılması üçün addımlar atmalarını istəyirlər. Hələlik vəzifə sahiblərindən kimsə Hüseyn Abdullayevin elçilərini yaxın buraxmır. Keçmiş acı təcrübədən çıxış edib ona köməklik etməkdən vaz keçirlər.

Vaxtilə 300 nəfərə yaxın qanunsuz dəstə saxlayıb mitinqçilərə divan tutduran, bununla fəxr edən Hüseyn Abdullayev bu gün özü mitinqçilərin durumundadır. Yəni indi car çəkib qanundan, haqdan, ədalətdən danışan Hüseyn Abdullayev vaxtilə ən böyük cinayət əməllərinin başında dayanırdı.

Keçmiş polis rəisi, Hüseyn Abdullayevin dostu olmuş Müşfiq Mədətov həbsdən çıxandan sonra müsahibə verib Hüseyn Abdullayevi satqın adlandırmışdı. Həmin günlərdə Hüseyn Abdullayev azadlıqda idi və Avropa ölkələrində, Türkiyədə böyük biznesini idarə etməkdə idi.

Müşfiq Mədətovun dedikləri isə sıradan fikirlər deyildi. Dostluq illərində yaşadıqlarına əsaslanan xatirələr idi.

**Həmin müsahibədən sitat:** “O vaxt Rza İbadovu döydüm. Bundan sonra o, Hüseyn Abdullayevlə gedib indiki prezidentimizin qəbuluna girmişdi. Onlar İlham Əliyevə deyiblər ki, Müşfiq Mədətov Rəsul Quliyevin tərəfdarıdır, rəsulçudur, sizə qarşıdır, daha nələr. Yəni dalımca danışmışdılar. Allah sonda kimin kim olduğunu göstərdi. Sonradan hər ikisi - həm Rza İbadov, həm də Hüseyn Abdullayev dövləti satdılar. İndi ikisi də gedib Rəsul Quliyevlə oturub-dururlar. Bu dövlətdən pul qazanan ”Quska" deputat olmuşdu. “Quska”nı deputatlıq mərtəbəsinə gətirən adamı da sonralar sıxışdırırdılar ki, sən bunu gətirib bizə problem elədin. Mən həbsdə olanda “Quska” yanıma gəlib dedi ki, Müşfiq, sən gəl mənimlə düşmənçilik eləmə, Rza səndən gedib prezidentə nələr deyibsə, hamısını yazmışam diskə. “Quska”ya dedim ki, bunu ikinizin də etdiyini bilirəm, amma indi çətinə düşən kimi gəlib Rzanı satırsan. Onlar o qədər adama pislik etdilər ki... Axırda nə oldu? Rzanın taleyi dağıldı, özü didərgin düşdü. Onlara qarşı həmişə yaxşı olmuşam. Kişi kimi arxalarında durmuşam".

**Müşfiq Mədətov Hüseyn Abdullayevin Fəzail Ağamalı ilə parlamentdə davasından sonra həbsi dövründə özünü necə aparmasına da toxunmuşdu.**

**Sitat:** “Kişi kimi yata da bilmədi. Həbsxanada ”sındı". Yaxınları girib kamerada ona-buna yalvarırdı. Müğənnilər çıxıb televiziyada bunun xahişini edirdilər. Əlaqə saxlayıb məlumat alırdıq. Dustaqlar gəlib deyirdilər ki, “Quska” türmədə özünü dəliliyə vurub ağlayır. Anası girib kamerada ona uşaq kimi qaşıqla yemək yedirirmiş. Kürdəxanının rəisi Azər Seyidov özü mənə danışdı bunu. Dedi girdim kameraya “Quska”ya deyim ki, bura nazirlər düşüb, özünü “sındırma”. “Nara”nın üstünə çıxıb qışqırıb ki, gəlməyin, məni öldürmək istəyirsiniz. “Quska” Bayılda olanda olub bu hadisələr".

Qeyd edək ki, Hüseyn Abdullayev aprelin 22-də Türkiyədə yaxalanaraq Azərbaycana gətirilib. Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətləri onun həbsi ilə bağlı birgə məlumat yayıb. Vergilər Nazirliyi tərəfindən aparılmış səyyar vergi yoxlaması nəticəsində “Araz İNC” MMC-də 1 milyon 436 min manat məbləğində vəsaiti dövlət büdcəsinə ödəməməsi faktı üzrə 7 iyun 2013-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddəsi ilə cinayət işi başlanıb. 3 oktyabr 2016-cı il tarixdə H.Abdullayevə ümumilikdə 1 milyon 810 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırması və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq almadan tikinti-quraşdırma işlərini həyata keçirərək 966 min manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr müəyyən edildiyindən Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci maddələri ilə yenidən ittiham elan edilməsi barədə qərar çıxarılmışdır.

Bundan başqa, ayrı-ayrı vətəndaşların Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş müraciətləri əsasında 14 fevral 2018-ci il tarixdə başlanmış cinayət işi üzrə H.Abdullayevin 2006-cı ildən 2018-ci ilədək olan müddət ərzində faktiki nəzarət etdiyi “Araz-İnşaat” ASC-də onun tapşırığına əsasən müəssisənin idarə olunmasını həyata keçirən Babayev Namiq İsmixan oğlu və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında cəmiyyətə məxsus obyektləri müxtəlif vaxtlarda ayrı-ayrı şirkətlərə icarəyə verərək ümumilikdə 1 milyon 374 min manat məbləğində gəlirlərin cəmiyyətin kommunal xidmət və sair xərclərinin ödənilməsinə sərf olunmasına dair digər səhmdarlara yalan məlumat verməklə 13 min 373 manat məbləğində dividentləri vahid qəsdlə ələ keçirib zərərçəkmiş şəxslərə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etməsinə şübhələr müəyyən edilib. Eləcə də H.Abdullayevin dəfələrlə N.Babayev vasitəsilə, daha sonra isə Almaniyadan istifadəsində olan telefondan “Autist Uşaqların Reablitasiyasına Kömək” İctimai Birliyinin sədri Elnur Məmmədova zəng edərək onun və ailə üzvlərinin ünvanına nəlayiq ifadələr işlədib tələblərinə əməl etməyəcəyi halda onları məhv edəcəyi ilə hədələyərək icarə müqaviləsi şərtlərinə görə hər ay ödəməli olduğu 3 min manat icarə haqqı əvəzinə onun nümayəndələrinə 6 min manat pul ödəməsini hədə-qorxu ilə tələb etməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, Cinayət Məcəlləsinin 178.2.1 (dələduzluq), 178.2.2, 178.2.4, 182.2.1 (hədə-qorxu ilə tələb etmə), 182.2.2 və 182.2.4-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə həmin maddələrdə nəzərdə tutulmuş ittiham elan edilib.

❑ **E.HÜSEYNOV, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 101 (6990) 9 may 2018


Azay Quliyev

# İş adamının deputat Azay Quliyevin adından şok fırıldağı - ilginc təfərrüatlar

## “AF holdinq” və “Uğur 97" şirkətlərinin sahibi olan Azay Möhnətov millət vəkilinin adından spekulyasiyalar etməklə təkcə vergidən yayınmayıb, daha böyük dələduzluq əməlləri törədibmiş; onun biznesini böyütmək, torpaq sahələri əldə etmək üçün QHT Şurası sədrinin adından istifadə etməsi faktlarının sayı-hesabı yoxdur

**Ötən həftə Azay Möhnətov adlı iş adamının ağlasığmaz variantlarla vergidən yayınması haqda yazı dərc etmişdik. Bildirmişdik ki, Azay Möhnətov vergidən yayınmaq üçün nüfuzlu şəxslərin adından istifadə edib və bu fakt ifşa olunub. Onun adından istifadə etdiyi şəxsin adını isə açıqlamamışdıq. Bu yazıdan sonra ortaya daha biabırçı faktlar çıxıb. Qəzetçilik təcrübəmizdə belə hallarla çox qarşılaşmışıq. Yüzlərlə belə dələduzluq hadisələri olub. Həmişə onun tərəfdarı olmuşam ki, belə halların, onun detallarının açıqlanması vacibdir. Ona görə ki, bu cür adamlar belə qanunsuzluqlarını, spekulyasiyalarını davam etdirə bilməsin.**

Ötən yazıdan sonra redaksiyamıza bu mövzu ilə bağlı xeyli zənglər daxil oldu, daha ciddi qanunsuzluqlar barədə məlumatlar ortaya çıxdı. Sən demə, Azay Möhnətov dövlət qurumlarında imtiyazlar əldə etmək, torpaq sahələrinə sahiblənmək, müəssisə açmaq və biznesini böyütmək, qorumaq üçün özünü deputat kimi təqdim edirmiş. O, çoxsaylı obyektlərinə vergi yoxlaması gələndə, yaxud haradasa müəssisə açmaq üçün səlahiyyətli şəxslərə müraciət edəndə özünü “deputat Azay müəllim” kimi təqdim edib! “Ustalıqla” hamıda belə rəy yaradıb ki, guya o, hamının tanıdığı deputat, QHT Şurasının sədri Azay Quliyevdir. O, daim soyadını gizli tutmağa çalışıb. Nəhayətdə, Azay Möhnətov belə rəy yaradıb ki, guya bu obyektlər və şirkətlər deputat Azay Quliyevə məxsusdur. Hətta təəssüflər olsun ki, çoxları, xüsusilə bir sıra vəzifəli şəxslər onun bu yalanına inanıb.

Ancaq hamı bilir ki, belə işlərin ömrü 40 gündür... Azay Möhnətovun bu yalanı növbəti saxtakarlıq edən zaman müvafiq qurumların ayıqlığı sayəsində aşkarlanıb. Belə ki, onun illərdir ödəmədiyi vergi borclarının ödənilməsi tələb olunub. Müvafiq qurumlar bir neçə gün öncə verginin ödənməsi üçün müraciət edəndə, Azay Möhnətovun adamları yenə də Azay Quliyevin adından spekulyasiyalar edib, bu obyektlərin deputat Azay Quliyevə məxsus olduğunu bildirərək, müəyyən dividentlər və güzəştlər əldə etməyə çalışıblar. Ancaq bu dəfə məsələ sona kimi araşdırılıb və bu obyektlərin deputat Azay Quliyevə deyil, böyük maliyyə və biznes imkanlarına malik olan iş adamı Azay Möhnətova məxsus olduğu müəyyən edilib. Beləliklə, uzun müddət davam edən saxtakarlıq və spekulyasiya faktı ifşa edilib.


Azay Möhnətov

Bu haqda “Yeni Müsavat” da aşağıdakı linkdəki “Məşhur iş adamının ağlasığmaz vergidən yayınma variantı” sərlövhəli yazı (http://musavat.com/news/vergiden-yayinmagin-azay-mohne-tov-varianti-ilginc-faktlar_524170.html) dərc olunandan sonra müxtəlif şəxslərdən də məlumatlar daxil olub ki, Azay Möhnətov (və adamları) özünü “deputat Azay müəllim” kimi təqdim etməklə və ya Azay Quliyevin adını məqsədyönlü şəkildə hallandırmaqla aşkar sui-istifadələrə yol verib və “deputat” adı altında bir sıra qanunsuz hərəkətləri ni ört-basdır etməyə çalışıblar. Qurduğu mexanizm isə çox maraqlı olub - səlahiyyətli şəxslə heç zaman görüşə özü getməyib ki, xarici görünüşə görə həyata keçirdiyi fırıldaqlar ifşa oluna bilər. Xahişi dolayısı yolla, telefonla və adamları vasitəsilə edib. Araşdırmalarımız zamanı məlum oldu ki, o, sənədləşmə işlərini də öz adına deyil, ona yaxın olan şəxslərin adına edib ki, birdən soyadına baxanda ifşa olunar. Açıqca dələduzluq işidir! Azərbaycanın Cinayət Məcəlləsi bu kimi hallara görə ciddi hüquqi məsuliyyət nəzərdə tutur.

Bu hələ bizim bildiklərimizdir. Daha nə qədər vəzifəli şəxslərin adından dələduzluq məqsədilə istifadə etdiyini isə heç kim dəqiq bilmir.

❑ Elşad MƏMMƏDLİ,
“Yeni Musavat”

# Azərbaycanda 541 Böyük Vətən müharibəsi iştirakçısı qalıb

## Onların sosial təminatı necə həyata keçirilir?

**Bu gün 9 May faşizm üzərində Qələbə günüdür. Böyük Vətən müharibəsi əlilləri və iştirakçılarının sosial təminatı məsələsi daima dövlətin diqqətindədir. Azərbaycanda bu qəbildən olan insanların pensiya təminatı, sosial müdafiəsi necə həyata keçirilir? Onlar hansı əlavə təminatlar alırlar?**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən “Yeni Müsavat”a verilən məlumata görə, 2006-cı ildən Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının yaşa görə əmək pensiyalarının baza hissəsinin üzərinə müvafiq məbləğlərdə əlavələr hesablanır, 2008-ci ildən Böyük Vətən müharibəsi əlillərinə Azərbaycan prezidentinin təqaüdlərinin təyin olunmasına başlanılıb. Həmçinin Böyük Vətən müharibəsi əlillərinin dövlət hesabına və növbəlilik qaydasında minik avtomobili və mənzillə təminatı da həyata keçirilir.

Qeyd edək ki, tarixin ən qanlı müharibəsində Azərbaycanın 640 mindən çox sakini iştirak edib. Onların təxminən yarısı döyüşlərdə həlak olub. Döyüşlərdə göstərdikləri igidliyə görə ölkəmizin 130-dək vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Müharibə vaxtı ön cəbhədə göstərdikləri şücaətə görə 176 min nəfər azərbaycanlı döyüşçü, arxa cəbhədə isə 250 min nəfər SSRİ-nin orden və medalları ilə təltif olunub. Bundan əlavə, 30 nəfər müharibə iştirakçısı 1-ci, 2-ci və 3-cü dərəcəli “Şöhrət” ordeni ilə təltif edilib.

1994-cü ildə ölkədə “Veteranlar haqqında” qanun qəbul edilib. Adıçəkilən qanunla İkinci Dünya müharibəsi illərində döyüşən orduda (donanmada), partizan birləşmələri tərkibində, gizli fəaliyyətdə Vətənin müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş, habelə başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində və keçmiş SSRİ Silahlı Qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri və müşavirləri kimi iştirak etmiş şəxslər müharibə veteranı kimi tanınıb.

1995-ci ildə Böyük Vətən müharibəsi iştirakçılarının həlak olan, yaxud sonralar vəfat edən döyüşçülərin dul arvadlarının, müharibə illərində arxa cəbhədə çalışan, fədakar əməyinə görə orden və medallarla təltif edilən vətəndaşların sosial müdafiəsinin yaxşılaşdırılması haqqında fərman imzalanıb. Fərmanla bütün müharibə iştirakçılarına və ya onların dul qalan arvadlarına birdəfəlik yardımlar edilib. Bu insanlar həmçinin kommunal, nəqliyyat və digər xidmətlərə görə ödənişlərdən azad olunublar. 2005-ci ildə bu güzəştlər müavinətlə əvəz edilib.

Qeyd edək ki, Böyük Vətən müharibəsi iştirakçılarının pensiya təminatı da digərlərindən fərqləndirilir. 2012-ci ilin sonunda “Əmək pensiyaları haqqında” Qanuna edilən dəyişiklikdən sonra Böyük Vətən müharibəsi iştirakçılarının əmək pensiyasının baza hissəsinə əlavə artırılaraq, 50 faizdən 90 faizə çatdırılıb.

Prezidentin fərmanı ilə Böyük Vətən müharibəsi əlillərinə verilən təqaüdlər bu ilin fevralından 10 faiz artırılıb.

Bundan başqa, hər il olduğu kimi, bu il də 9 May Qələbə Günü ərəfəsində prezident 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, sərəncam ümumilikdə 10 962 nəfər şəxsə şamil olunub. Onlardan 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçıları olan 541 nəferin hər birinə 1000 (min) manat məbləğində birdəfəlik maddi yardım ödənilib.

Qalan 10 421 nəfər isə İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin ailə üzvlərinin hər biri 500 manat məbləğində birdəfəlik maddi yardımla təmin olunub.

Xatırladaq ki, qeyd olunan şəxslərə birdəfəlik maddi yardım verilməsi üçün 2017-ci il dövlət büdcəsindən 5,9 milyon manat vəsait ayrılıb.

❑ İqtisadiyyat şöbəsi,
“Yeni Müsavat”

# Rusiya DİN-dən erməni və Azərbaycan diasporuna 9 May xəbərdarlığı

**Rusiya Daxili İşlər Nazirliyinin Moskva şəhəri üzrə Baş İdarəsində Azərbaycan və Ermənistan diaspor nümayəndələri ilə görüş keçirilib.**

Bu barədə APA-ya Rusiyadakı Azərbaycan Mədəniyyətinin İnkişafı və İntibahı Fondunun sədri Şamil Tağıyev məlumat verib. O bildirib ki, bu gün Baş İdarədə hüquq-mühafizə orqanlarının nümayəndələri Azərbaycan və Ermənistan diasporunun üzvləri ilə görüşüblər: “Görüş zamanı mayın 9-da Moskvada keçiriləcək ”Ölməz alay" ümumxalq yürüşündə təhlükəsizliyə riayət olunması müzakirə edilib. Azərbaycan və Ermənistan diasporunun nümayəndələrinə yürüş günü ötənilki kimi, qarışıqlığa gətirib çıxaracaq təxribat ola biləcəyi ilə bağlı narahatlıq bildirilib.

Rusiya DİN Baş İdarəsinin nümayəndələri deyiblər ki, DİN rəhbərliyi və “Ölməz alay” təşkilat komitəsinin əmrinə əsasən yürüşə Böyük Vətən müharibəsinə dəxli olmayan bayraqlar, simvollar və atributlar gətirmək qadağandır. Bunu etməyə çalışan şəxslərdən həmin əşyalar, simvollar alınacaq. Yalnız Rusiyanın bayrağı, Qələbə simvolu və Böyük Vətən müharibəsi veteranlarının portretlərini gətirməyə icazə verilib".

Ş. Tağıyev Azərbaycan diasporunun üzvlərinə müraciət edərək “Ölməz alay” yürüşü zamanı onları qanun-qaydaya riayət etməyə çağırıb.

# Dərman mafiyasına qarşı əməliyyatın mübhəmləri

## DGK-nın sabiq rəisi Aydın Əliyev istintaqa cəlb oluna bilər; yeni həbslər gözlənilir...

**Dövlət Gömrük Komitəsində və strukturlarında kadr dəyişiklikləri, islahatlar və araşdırmalar davam edir. Komitədə rəhbərlik dəyişdiriləndən sonra Aydın Əliyevin üsul-idarəsi də ləğv olunur. Gələn məlumatlara görə, ötən il 25 illiyi qeyd olunan komitədə genişmiqyaslı əməliyyatın davamı da ola bilər. Gerçəkləşən əməliyyatın köhnə kadrların "təmizlənməsinə" hesablandığı bildirilir.**





Yada salaq ki, Baş Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Gömrük Komitəsinin mətbuat xidmətləri ötən gün birgə məlumat yayaraq komitədə baş tutan əməliyyat haqda ictimaiyyəti bilgiləndiriblər. Məlumatda qeyd olunur ki, 30 aprel 2018-ci il tarixdə keçirilmiş birgə tədbirlər zamanı qanunsuz fəaliyyətlə məşğul olan mütəşəkkil dəstə müəyyən edilərək ifşa olunub. Belə ki, görülmüş tədbirlər nəticəsində Bakı Beynəlxalq Hava Limanındakı Bakı Karqo Terminalından gömrük nəzarətindən yük maşınında çıxarılaraq dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə məşğul olan Anar Kamran oğluna Məmmədov məxsus yaşayış sahəsinə daşınan dövlət qeydiyyatından keçməmiş, ölkəyə buraxılması qanunsuz olan 53 adda ümumi dəyəri 108 min 819 manatlıq müxtəlif dərman vasitələri aşkar edilərək saxlanılıb. Səhiyyə Nazirliyinin əməkdaşlarının iştirakı ilə Anar Məmmədova məxsus Yasamal rayonunda yerləşən "Zeytun" aptekinə baxış zamanı dövlət qeydiyyatından keçməmiş, mənşəyi məlum olmayan 75 adda müxtəlif dərman vasitələri aşkar edilərək götürülüb. Davam edən araşdırmalarla Yasamal rayonu ərazisindəki "İrem", "Qlükoza", "Avas", "Fatimə", Nəsimi rayonu ərazisindəki "Zeytun", "Medical City", "Elit", "Vahid", "Dokta Elite", Nərimanov rayonu ərazisindəki "Şəfa", "Şəfa Zeytun 426", "Təbib" apteklərinə satılmış müxtəlif sayda dövlət qeydiyyatından keçməmiş dərman vasitələri aşkar edilərək dövriyyədən çıxarılıb. İlkin istintaqla müəyyən edilib ki, xarici ölkə vətəndaşı Ateş Atanur, Azərbaycan vətəndaşı Anar Məmmədov 2016-cı ildən hazıradək satış məqsədilə dərman vasitələrinin ölkəyə qanunsuz yollarla gətirilməsini müntəzəm şəkildə təşkil ediblər. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin vəzifəli şəxsləri bu dərmanların yük müşayiət sənədlərini dəyişdirərək Hava Nəqliyyatında Baş Gömrük İdarəsində Mərkəzi Gömrük Hospitalına çatması nəzərdə tutulan başqa məhsullar adı altında bəyan edilməsini, bu yolla qeyd olunan dərmanların ölkəyə qeydiyyatsız keçirilməsini təşkil etməyə görə əvvəlcədən hər yükün ümumi dəyərinin 25 faizi dəyərində haqq alıb, dərmanların ölkəyə qeydiyyatsız idxalını, gömrük nəzarətindən çıxarılaraq birbaşa dərman satışı ilə məşğul olan şəxslərə çatdırılmasını təmin ediblər. Dövlət Təhlükəsizliyi Xidmətində davam edən cinayət işi üzrə toplanmış ilkin sübutlar əsasında gömrük orqanlarında vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə qaçaqmalçılıq və külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı cinayət əməllərinə görə Fərman Həmzə oğlu Məmmədli, Vasif Teymur oğlu Xıdırov, Cəmil Səlim oğlu Mehtiyev, Ateş Adem oğlu Atanur, Anar Kamran oğlu Məmmədov, həmçinin Əlamət Nazim oğlu Quliyevə müvafiq olaraq Cinayət Məcəlləsinin 200-1.2.2, 200-1.2.3 (dərman vasitələrinin qanunsuz dövriyyəsi), 206.3.2, 206.3.3 (qaçaqmalçılıq) və 314.2 (səhlənkarlıq) maddələri ilə ittiham elan olunmaqla barələrində məhkəmənin qərarları ilə həbs-qətimkan tədbiri seçilib. Dövlət Gömrük Komitəsinin rəhbərliyi tərəfindən Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Sadiq Abduyev, Tibbi Xidmət İdarəsinin rəisi Fikrət Qədiməliyev, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Birinci yük şöbəsinin rəisi Araz Məmmədov və digərləri tutduqları vəzifələrdən azad edilməklə sərəncama götürülüblər. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Maraqlıdır ki, hazırda Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin infrastrukturu beynəlxalq standartların tələblərinə cavab verir. Bunu Gömrük Komitəsinin rəsmi saytından da oxumaq olar, ən müxtəlif tədbirlərdə gömrük rəsmilərinin dilindən eşitmək də mümkündür. Bakı Hava Limanında ümumi gömrük ərazisi müşahidə kameraları vasitəsilə 24 saat ərzində izlənir, sərnişin zallarında 20-dən artıq, yük terminalında 3, yerlərdə isə 6 monitor quraşdırılıb. Həmin texnoloji avadanlıqlar ən yüksək tələblərə cavab verən, dünyanın inkişaf etmiş ölkələrində istifadə olunan avadanlıqlardır. Bəs necə olub ki, bir yük maşını dərmanı hava limanından keçirib? Bu sıradan bir hadisədirmi?

Dövlət Gömrük Komitəsinin yüksək vəzifəlilərinin adının da dərman qaçaqmalçılığına qarışmasını əslində illərlə mətbuatda yazılan məlumatların təsdiqi kimi də qəbul etmək olar. Belə çıxır ki, gömrükçü məmurlar dərman preparatlarını şəxsi maraqları üçün - 25 faiz haqq almaqla ölkəyə keçirilməsinə imkan veribsə, digər qiymətli əşyaların da başqa ad altında ölkəyə keçirilməsi hallarına yol verə bilərdilər. Məsələn, brilyantı adi şüşə, qızıldan hazırlanmış zinət əşyalarını mis və ya digər daha ucuz materialdan hazırlanan zinət əşyası kimi rəsmiləşdirib ölkəyə keçirilməsini təmin edə bilərdilər.

Bunu hava limanındakı gömrükçülər özbaşına, yuxarılara məlumat vermədən edə bilərdilərmi?

Əlbəttə ki, yox. Uzağı 1-2 dəfə belə hərəkətlərə yol verəydilər, növbəti dəfə kənar bir qurumun deyil, elə DGK-nın Daxili Təhqiqatlar İdarəsi rəsmilərini qarşılarında görərdilər. Çünki ərazi 24 saat fasiləsiz olaraq izlənilir! Deməli, ərazidən rəsmiləşdirmə aparmadan mal-material keçirmək istəyən adam izləmə kameralarını "kor" etmək gücündə olmalıdır. Və ya qeydə alınan məlumatların bir kənara tullanmasını, məhv edilməsini təmin etmək iqtidarına sahib səlahiyyət sahibi olmalıdır.

Digər bir maraqlı məqam isə odur ki, DGK-da keçirilən əməliyyat Aydın Əliyev vəzifəsindən çıxarılandan cəmi 1 həftə sonra gerçəkləşdirilib. Rəsmi məlumata görə isə dərman qaçaqmalçılığı 2016-cı ildən həyata keçirilirmiş. Deməli, istintaq bir qədər ətraflı, geniş aparılsa, Aydın Əliyevin istirahətlə bağlı planları alt-üst olacaq. Yada salaq ki, Aydın Əliyev bu il aprelin 23-də tutduğu vəzifədən uzaqlaşdırılıb. O, işdən çıxarılandan sonra planları haqda danışarkən deyib ki, bir müddət istirahətə üstünlük verəcək. Rəsmi məlumata inansaq, aprelin 30-da isə məlum əməliyyat keçirilib və bu əməliyyat Aydın Əliyevin istirahətinin üstündən xətt çəkmək gücündədir. Onun rəhbərliyi altında çalışmış və hazırda istintaqa cəlb olunan yüksək vəzifəli gömrük işçiləri barəsində ifadə versələr, Aydın Əliyev də istintaqa cəlb oluna bilər.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Naxçıvanın 15 illik prokuroru vəzifəsində qaldı

**Səbuhi Zəhmət oğlu Şahverdiyev Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilib. Bununla bağlı prezident İlham Əliyev müvafiq sərəncam imzalayıb.**



"Yeni Müsavat" xatırladır ki, Səbuhi Şahverdiyev 1972-ci il avqust ayının 10-da Naxçıvan şəhərində anadan olub. 1994-cü ildə Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat fakültəsini, 2001-ci ildə isə Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. 1996-cı ildən 2001-ci ilin sentyabr ayınadək Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarında müxtəlif məsul vəzifələrdə işləyib, 2001-ci ilin sentyabr ayından Naxçıvan Muxtar Respublikası prokurorunun müavini vəzifəsinə təyin olunub. Prezidentin 4 dekabr 2002-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsinə təyin olunub. II dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsindədir. Ailəlidir, iki övladı var.

# İtirilmiş cənnət haqda kədərli yazı



**Xalid KAZIMLI**

**Bu gün başqa bir şeydən, güman ki, bir az məzəli, bir az pozitiv mövzuda yazacaqdım.**

Ancaq Orxan Məmmədli imkan vermədi. Jurnalist həmkarım Məmməd Nazimoğlunun oğlu Orxan. O, "Feysbuk"da elə bir şey yazmışdı ki, o sözlər məni götürüb kəndimizə apardı.

Orxan belə yazmışdı:

"Lap üstündən 50 il keçsə də, heç olmasa ildə bir dəfə böyüdüyün kəndin avtobusuna minmək lazımdır.

Bir kısmat ot qırıb buzovlara vermək, pəyəni kürümək, ağacları sulamaq, yer belləmək, sonra yumru yastığı yerə atıb fanerkanın üstüylə işığa doğru gedən xəttə baxmaq lazımdır.

Sən bu evdə böyümüsən axı, ay əclaf! Sənin ki getməyə yerin var. Yurdunu ki almayıblar! Darvazanı qıfıllayıb gələnlər var ey, 26 ildir açarı cibində, qəhəri boğazında vurnuxurlar.

Kəndinizə gəlin, kəndinizə gedin!"

Orxan "darvazanı qıfıllayıb gələnlər var" deyərkən bizi deyir.

Yox, qardaşoğlu, biz darvazanı qıfıllayıb gələ bilmədik. İmkan olmadı. Sarı darvazamız taybatay açıq qaldı. O darvazadan tank keçə bilməzdi, amma ZTR keçərdi. Amma ikisi də keçmişdi.

Bunu mənə sonradan jurnalist Tahir Paşa danışıb. O, həmin vaxt Füzulinin kəndlərini bir-bir ermənidən geri alan ordu hissələrimizin tərkibində kəndimizdə olmuşdu. Danışırdı, deyirdi, sizin kəndin filan yoluyla, açağı tərəfdən kəndə girdik, biri kirəmitli, biri şiferli iki böyük evin arasından dar cığırla bir evə çıxdıq, həyətində önü tünd qırmızı boya ilə fasadı kərpic-kərpic edilmiş hamam və çoxlu su bidonları vardı, qoz ağacının dibindən çoxlu qoz yığdıq.

Bir az öncə onun "damı kirəmitli evdə çoxlu dava-dərman, aptek ləvazimatları vardı" deməsindən onun qonşumuz Nemətgilin evi olduğunu bilmişdim. Nemətin anası kənd xəstəxanasının əczaçısı idi. Həyətində kərpic rəngli fasadı olan hamam və çoxlu su bidonları olan ev isə bizimkiydi. O hamamı öz əllərimlə tikmişdim. Qoz ağacını da atam əkmişdi.

Tahir Paşadan sakitcə "ev yerindəydimi" deyə soruşdum. O, udqundu və sakitcə əlavə etdi: "Ev deyəndə, hiss olunurdu ki, burada ev olub, təkcə fundamenti salamat idi. Tankla vurub dağıtmış, yandırmışdılar".

Demək, sarı darvazadan tank da keçibmiş. Görünür, uçurdub keçib.

Sonradan bizim kəndimiz yenə düşmən əlinə keçdi, indi ora təmas xəttidir. Düşmənin əsas istehkamı düz mənim ev tikəcəyim yerdədir. Ermənilər bir dəfə bir video paylaşmışdılar, ordan görüb tanımışam. Zavodun o cür görünüşü yalnız mənim özül qazdırdığım yerdən elə görünə bilərdi.

İndiyə heç kəsin cibində o evlərin açarı qalmaz. Olmayan darvazanın, olmayan evlərin, sökülmüş qapılarının açarı ta nəyə lazımdır ki?

Amma Orxanın dediyi "boğazdakı qəhər" məsələsi ilbəil artır. Heç cür sengimir, heç cür udulmur.

Bu vədələr bizim kənd cənnət olurdu. Həyətlərdəki növbənöv qızılgüllər (çəhrayı rəngli nəlbəki qızılgül, bənövşəyi rəngli məxməri qızılgül) açılıb pardaqlanır, ətri yeddi o yana qonşulara yayılırdı, onun iyinə akasiya və iydə ağaclarının çiçəyinin ətri qarışırdı. Cənnət ətri gəlirdi. Düzdür, heç kəsin cənnət haqda dürüst, bir neçə mənbədən təsdiqlənmiş məlumatı yoxdur, amma elə bir yer varsa, o mütləq kəndimizin bu vaxtlarının ətrini verməlidir.

Hər yan yaşıllıq olardı. Hər bir həyət bir kurort pansionatı boydaydı - geniş, çox ağaclı, kölgəli, talvarlı, sərin, rahat... Adama elə gəlirdi ki, həyat durub, zaman getmir, dayanıb və insan 1000 il yaşayar, ölməz.

Sonra hər şey sürətləndi, kəndimizi ildırım vurdu. Hər gün eşitdiyimiz top gurultusu, "Qrad" səsləri yavaş-yavaş kəndimizə yaxınlaşdı. Panika, təlaş, Xocalı aqibətinin xofu, yiyəsizlik, müdafiəsizlik, başıpozuqluq... Heç bilmədik, kim qırıldı, kim qaldı. Və hər şey yox oldu.

O vaxtdan bəri camaat kəndinə yalnız yuxularında gedir. Bir də yolları düşəndə kəndə 3-4 kilometr yaxınlaşaraq "Daşlı yer"in başındakı təpədə durub baxır, baxır, köks ötürüb, geri qayıdır, Quruçaya enib, "Zərif bulağı"nda əl-üzlərini yuyurlar.

Bu "əl-üz yuma" ayini bilirsinizmi, nədir? Adamlar gözlərinin bulağında qurumuş, hərdən də üzlərini islatmış göz yaşlarını yuyurlar. Sonra bir az su götürüb Bakıya, Sumqayıta, Şirvana, İmişliyə, Sabirabada, Gəncəyə qayıdırlar.

Ona görə də Orxan düz deyir: kəndinizə gedin.

Elə norveçli səyyah Tur Heyerdal da düz deyirdi ki, insan sonda cənnəti tapır - vətəninə qayıdanda.



# Altı qadın üçün pambıq

Zamin HACI
zaminhaci@gmail.com

"Pənbeyi-dağı-cünun içrə
nihandır bədənim,
Diri olduqca libasım budur,
ölsəm, kəfənim"

*(Füzuli)*

**Deyir masaj salonu adı ilə əxlaqsızlıq yuvası işlədirlər. Bəs neyləsinlər? Əxlaqsızlıq yuvası adı ilə masaj salonu açası deyillər ki? Hərə bir cür əxlaqsızlıqla başını dolandırır və inandığınız haqqı, bu siyahıda bədənini satıb çörək qazanan adamlar bəlkə siyahının ən axırlarında da yer tutmur. Əxlaqsızlığın ən yekəsi rüşvətxorluqdur, yalançılıqdır, yaltaqlıqdır. Bir millətin millət olması üçün ilk növbədə bunu anlaması lazımdır. Yoxsa hərənin bədəni özünündür, kimə nə dəxli... Ancaq millətin ümumi şəkildə canını alıb satanlar qəsdən bu qurşaqdan aşağı əxlaq söhbətlərini şişirdib yayırlar, təbliğ edirlər. Ayə qoyma, filan qadınlar filan ölkədə adımızı batırdılar. Adə, turisti tut, namusumuz əldən getdi... Ki, millət ayılıb gerçək əxlaqın nə olduğunu qanmasın. Bu işdə din xadimləri də tarixən hakimiyyətlərlə əlbir olmuşlar.**

Necə deyərlər, kimin günahı yoxdursa, birinci daşı o atsın. Ancaq qorxuram burada da "məsumlarımız" növbə, basabas yaradalar, nəticədə o qədər daş atılar ki, həmin daşlardan özümüzə lap mikrorayon qayırarıq. Ya da jurnalistlər üçün bina. Yaxud sosial mənzillər. Nə bilim, növbəti qaçqın şəhərciyi. Cocuq Mərcanlı Universiteti (CMU) üçün tədris korpusu. Maşallah, tikinti üçün projelərimiz başdan aşır.

O tərəfdə isə lapet qoşulmuş traktor aşır və 6 yazıq qadın bir anda ölür. Pambıq becərməyə gedirmişlər. Başqa hara gedə bilərdilər? Bizdə bütün yollar pambıq qozasının altına aparır. Becərdikləri pambıqdan onlara heç kəfən də tikilməyəcək - bu ölkədə bez istehsalı da yoxdur. Heç pambıq yığmısınızmı? Mən 1994-cü ildə İmişlinin Xəlfəli kəndində bir az yığmışam. Dəhşətli şeydir. Elə bil havanı yığırsan. Çiçəyin "tükünü" topla ki, toplayasan... Əlləşirsən, ancaq bu zəhrimara qalmış 1 kiloqrama çevrilmir ki, çevrilmir. Çevriləndə isə sənə həmin kiloya görə 50 qəpik ödəyəcəklər. Qul əməyidir. Tərtəmiz. Ağappaq qul əməyi. Orta əsrlərdə avropalılar pambığa "Tatar qoyun ağacı"nın məhsulu deyirdilər. Onlar elə güman edirdilər hardasa Xəzər dənizi tərəflərdə, çöllərdə bir bitki növü var, onun üstündə çiçək yerinə canlı qoyunlar yetişir. Bu haqda çoxlu Renessans dövrü illüstrasiyaları qalıbdır *(bax: Con Mandevil, Fridrix Bertux, Tomas Braun və başqaları).* Pambığın qoyun bitkisindən alınması necə də maraqlı metaforadır.

Pambıq yığan adamın havada əl-qol atması bir az da boğulan adamın əl hərəkətlərinə oxşayır. 6 qadın aşan lapetdən kanala düşüb boğuldular. Böyük faciədir. Bir ailədən ana və iki qızı ölüb. 3 ölü. Ər isə Rusiyada dolanışıq axtarırmış. İndi balaca oğlan qalıb. Kanalın qırağında gəzib sularda anasın, bacılarını axtarır. Bu faciədən bir gün qabaq hind rejissoru Bimal Roy-un "İki biqha torpaq" *(biqha Hindistanda sahə ölçü vahididir, düzü, nə qədər edir tapammadım, üzrlü sayın)* filminə baxırdım. 1953-cü ildə Kann festivalında ödül qazanmış bir filmdir. Film hind kəndlisinin torpağını itirmək, dolanışıq, həyatda qalmaq üçün hansı əzablardan, işgəncələrdən keçdiyini göstərir. Olduqca sarsıdıcı, realist filmdir. Yazıçı Seymur Baycan demişkən, bu filmə gərək 3-4 dəfə saxlayıb baxasan, birbaşa baxanda adamın ürəyi partlayır. Məncə, o altı pambıqçı qadının həyatı da hind kəndlisinin həyatından heç fərqlənmirdi. Hətta filmin qəhrəmanlarının yol, avtomobil qəzası keçirməsi *(spoyler olmasın deyə açıq yazmıram, bəlkə kimsə internetdən tapıb baxmaq istəyir)* də olduqca bənzər epizod idi. Azərbaycan kəndlisinə pay torpaqlarının verilməsi, guya aqrar islahatların keçirilməsi əslində nağıldır. Kəndlilər qısa zamanda o torpaqları dəyər-dəyməzinə satıb yenidən varlı məmur-ağaların köləsinə çevriliblər. Günəmuzd, bir qarın çörəyə işləyirlər.

Kəndlini saxtalaşdırdılar, siyasəti saxtalaşdırdılar, söz azadlığının oyuncağını düzəltdilər, indi isə əxlaq yuvası dərdindədirlər. Guya. Dünən bir deputatın da bir növ, saxtalaşdırıldığını oxuduq. Sən demə, lotunun biri həmin deputatın adını mənimsəyib vergiləri ödəmirmiş. Əcəbdir. Quyunu dərin qazın.



# Paşinyan arzusuna çatdı - bundan sonra Ermənistanı nə gözləyir?

## "Onun düşünməsi üçün bir neçə ay vaxtı var"; düşmən ölkədə hökumət dəyişikliyinə Bakıdan reaksiyalar...

**Mayın 8-də Ermənistan Milli Məclisində ölkənin yeni baş nazirinin seçilməsinə həsr olunmuş xüsusi iclas keçirilib. Mayın 1-də yetərli sayda səs ala bilməyən müxalifət lideri Nikol Paşinyan bu dəfə 59 səs alaraq hökumət başçısı seçilib. Onun əleyhinə 42 deputat səs verib. Paşinyan 15 gün ərzində yeni kabineti təqdim edəcək. Parlamentin iclası Respublika meydanında qoyulan televizorla canlı nümayiş olunub və meydana toplaşmış on minlərlə insan prosesə şahidlik edib.**

**Paşinyan parlamentdəki çıxışı zamanı Ermənistan vətəndaşlarına təşəkkür edib:** "Daxili münasibətlərdə avtomatlar birdəfəlik susmalıdır. Respublikada bizim tərəfdarlarımız və rəqiblərimiz üçün bir qanun hökm sürəcək. Heç bir iqtisadi monopoliya, heç bir seçicinin alınması olmayacaq. Siyasi və iqtisadi təqib dövrü sona çatıb".

**Ardınca o, Dağlıq Qarabağın "müstəqilliyi"nin tanınacağını iddia edib:** "Mən"Qarabağ Respublikası"na dəstəyimi və sevgimi çatdırmaq istəyirəm. Əziz qarabağlılar, son 1,5 ay ərzində etiraz hərəkatları sizin üçün təhlükə deyil. Bu, Dağlıq Qarabağın haqlarının tanınmasına səbəb olacaq. Biz birlikdə vacib milli hədəflərə çatmaq məsələsinə əvvəllər heç bu qədər yaxın olmamışıq". O da bəlli olub ki, N.Paşinyan ilk olaraq Azərbaycanın işğal altındakı ərazilərinə, Qarabağa gəlməyə hazırlaşır.

Ermənistan parlamentindəki müzakirələrdə Paşinyan deputatların müxtəlif mövzularla bağlı suallarını cavablandırıb. Qarabağ məsələsinə dair suallara cavab verən Paşinyan deyib ki, danışıqları davam etdirməyə hazırdır, amma Dağlıq Qarabağ danışıqlar masasına qayıtmadan müzakirələr effektiv olmayacaq. Onun fikrincə, Qarabağ məsələsində Ermənistan əsasən orduya ciddi fikir verməlidir.

**Ermənistan prezidenti Armen Sərkisyan Nikol Paşinyanla işləməyə hazır olduğunu bəyan edib:** "O, hökumətə necə rəhbərlik edəcək, bunu zaman göstərəcək. Mən öz həyat təcrübəmə arxalanaraq ona müəyyən məsləhətlər verə bilərəm. Amma o, bunu istəsə və qəbul etsə... Mənim üçün prioritet qanun və konstitusiyadır. Kim bunu pozmaq istəsə qarşısında məni görəcək". Armen Sərkisyan Nikol Paşinyanın iqtisadi-siyasi kursu barədə məlumatı olmadığını desə də, istənilən halda onun atacağı addımların Ermənistan-Rusiya münasibətlərinə xələl gətirməyəcəyinə ümidvar olduğunu əlavə edib.

Nikol Paşinyanın rəhbərliyi ilə Ermənistanda formalaşdırılacaq yeni hökumətə kimlərin daxil olacağı artıq bəllidir. Axar.az bu barədə "İravunk" qəzetinə istinadən xəbər yayıb. Məlumata görə, Müdafiə Nazirliyinə hazırkı fövqəladə hallar naziri David Tonoyanın rəhbər gətiriləcəyi gözlənilir. Paşinyanın bu məsələdə ciddi dalanla üz-üzə qaldığı haqqında informasiyalar yayılır. Belə ki, Tonoyan Seyran Ohanyanın nazir olduğu dönəmdə nazir müavini olub və buna görə nə Müdafiə Nazirliyi, nə də ondan kənarda onu yaxşı sözlərlə xatırlayırlar. Bu dalandan əsas çıxış yolunun Paşinyanın tərəfdaşı olan Sasun Mikayelyanın bu vəzifəyə gətirilməsi olduğu iddia olunur. Paşinyan isə bunun həm özü, həm ölkəsi üçün başağrısı olacağını gözəl bilir. Baş nazirin müavini vəzifəsinə iş adamı Xaçatur Sukiasyanın gətirilməsi şayiələri yayılır. Lakin Paşinyan hələ də hazırda bu vəzifəni icra edən Karen Karapetyanın öz vəzifəsində qalacağına ümid edir. Paşinyanın hazırkı müdafiə naziri ilə yollarını ayıracağı da deyilir. Məlumata görə, artıq Ermənistanın müdafiə naziri Vigen Sərkisyan və müavinləri A.Davityanla A. Zakaryan istefa ərizəsi yazıblar.

"Azərbaycan hökuməti ilə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları aparmağa hazıram". Bunu N.Paşinyan deyib (APA). O qeyd edib ki, "Ermənistandakı inqilabın qələbəsi Dağlıq Qarabağ üçün yeni imkanlar açır". Maraqlı situasiya yaranır, həm Sərkisyan, həm də Paşinyan Qarabağ danışıqlarını aparmağa həvəsli görünür. Bir çox müşahidəçilər N.Paşinyanın rəhbərliyi dövründə Ermənistanın fəlakətlər girdabına yuvarlanacağını deməklə yanaşı, onun baş nazirliyinin Qarabağ danışıqlarına da müsbət dinamika gətirməyəcəyini proqnozlaşdırırlar. Paşinyan baş nazir olandan sonra Ermənistanı nə gözləyir? Onun Qarabağla bağlı mövqeyi necə olacaq?

Belə yanaşmalar var ki, Rusiya 5 rayon məsələsini həll etmək üçün hərəkətə keçəcək, savaşda iştirak etməyən birisini də Ermənistan rəhbərliyinə gətirməkdə əslində gizli plan qurub.

**Ermənişünas alim Qafar Çaxmaqlı bildirdi ki, gözlədiyi kimi, Ermənistan Milli Məclisində Paşinyanın baş nazir seçilməsinə hakim Respublikaçılar Partiyası tərəfindən maneə yaradılmadı:** "Bu məsələ gizli razılaşmalar nəticəsində baş tutub. Hakim partiya fraksiyasının rəhbəri Vahram Bağdasaryan bildirmişdi ki, Paşinyan seçiləndən sonra dərhal erkən seçkilər keçirilməlidir. Deməli, artıq RP müxalifətə keçir və onlar bu seçkidə xalqın səsini alıb yenidən hakimiyyəti ələ almağa çalışacaqlar. Yeni seçkilər hər şeyi yerinə qoyacaq. Paşinyan kimlərlə işləyəcək? Məncə, keçmiş oliqarxlar hakimiyyətdən uzaqlaşdırılacaq. Onların böyük güc olduğunu nəzərə alsaq, Ermənistanda hələ uzun müddət siyasi xaos davam edəcək. Kənar qüvvələr, o cümlədən Rusiya artıq yeni ssenariləri işləmək məcburiyyətindədir".

**Qarabağla bağlı məsələlərə gəlincə, Q.Çaxmaqlının fikrincə, bu məsələdə yeni heç bir şey gözlənilmir:** "Paşinyan olsa da, olmasa da ermənilərin bəlli bir siyasəti var. Bu siyasət də, dəfələrlə demişik ki, Qarabağın işğalını qanuniləşdirmək, de-yure Ermənistana bağlamaqdır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə Azərbaycanla danışıqlara hazır olması ilə bağlı açıqlamasına diqqət çəkdi:** "Bu, azdır, biz onu konstruktiv mövqeyə gətirməliyik. Onun iki yolu var: sülh, əmin-amanlıq və ölkəsi üçün inkişaf arzulayırsa, keçmiş lideri Levon Ter-Petrosyan kimi münaqişənin "mərhələli həll planı"nı qəbul etməli, xələfləri kimi status-kvonun davamını istəyirsə, əvvəlkitək İrəvanda erməni gənclərinin qəbirlərini qazmağa hazır olmalıdır. Seçim Paşinyanındır. Onun düşünməsi üçün bir neçə ay vaxtı var".

**O ki qaldı baş nazir Paşinyanın daxili siyasətdə atacağı addımlara, E.Şahinoğlu hesab edir ki, onun geniş manevr imkanları yoxdur:** "Komandasını və proqramını ayaqüstü formalaşdırmalı, islahatlar aparmaq və sosial durumu normallaşdırmaq üçün əlavə resurslar tapmalıdır ki, o da kasıb Ermənistanda yoxdur, ağası Rusiya isə daha müftə pul vermək istəmir. Paşinyan küçənin vasitəsilə hakimiyyətə gəldi, ölkəsini uçurumdan qurtarmasa, elə həmin küçənin təzyiqi ilə də yola salınacaq".

Səsvermədən az sonra Rusiya prezidenti Vladimir Putin Paşinayanı ilk təbrik edən xarici ölkə başçısı olub. Rusiyanın operativ reaksiyası "inqilab" oyununun arxasında Kremlin dayandığı barədə ehtimalların əbəs olmadığını deməyə imkan verir. Lakin nəticə çıxartmağa tələsməyək, Serj Sərkisyan 3 günlük baş nazir seçiləndə də onu ilk təbrik edən Rusiya hakimiyyəti olmuşdu...

❑ **Elşad PAŞASOY,**

YENİ MÜSAVAT
N 101 (6990) 9 may 2018

**Ermənistanda Nikol Paşinyanın baş nazir seçilməsi ilə 1 aya yaxındır davam edən gərginlik yəqin ki, tədricən aradan qalxacaq. Ən azından insanların küçələrdən yığışacağı gözləniləndir. Bir çox siyasi, hərbi ekspertlər aprelin 13-də Ermənistanda xalq etirazlarının ölkəni bürüməsindən sonra və faktiki olaraq hakimiyyət böhranı yaşandığı günlərdə Azərbaycan hakimiyyətinə bu fürsətdən istifadə edib torpaqlarımızın azad edilməsi üçün hərbi əməliyyatlara başlamaq çağırışı etdilər. Lakin məlumdur ki, Azərbaycan bu müddətdə hərbi əməliyyatlara başlamadı.**

# “İrəvan qarışanda ona görə müharibə etmədik ki...”- səbəblər

## Müharibə başlayacağı təqdirdə, Ermənistan bundan ölkəmizin əleyhinə istifadə edəcəkdi



Odur ki, ortaya belə bir sual çıxır ki, biz bu bir ayda Ermənistandakı vəziyyətdən, xaosdan, hökumətsizlikdən hansı səbəblərə görə istifadə etmədik? Bəlkə doğru etdik bu cür davranmaqla? Bəlkə çox böyük səhvə yol verib tarixi şansı əldən vermiş olduq?

**Politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, Azərbaycanın Ermənistandakı proseslərdən fürsət olaraq istifadə etməməsinin səbəbləri var: “20 ilə yaxın müddətdə Ermənistanda separatçı Dağlıq Qarabağ rejiminin nümayəndələri hakimiyyətdə idi. Robert Köçəryanla Serj Sərkisyan Xocalı soyqırımında, Azərbaycan ərazilərinin işğal edilməsində əllərində silah şəxsən iştirak ediblər. Onlarla sülh anlaşması mümkün deyildi. İndi Ermənistanda hakimiyyət dəyişir və Azərbaycan torpaqlarının işğalında, azərbaycanlıların soyqırımında şəxsən iştirak etməyən, Ermənistan doğumlu Nikol Paşinyan hakimiyyətə gəldi. Bu yeni vəziyyət yaradır. Bu bizə şərait yaradır ki, yeni hakimiyyətlə bir dialoq mühiti yaradıb onlara anladaq ki, müharibə onlara zərərdir. Ermənistanda hərbi xuntanın hakimiyyətdən uzaqlaşdırılması üçün proseslərin getdiyi vaxtda bizim seyrçi mövqeyində dayanmağımız doğru idi. Biz bu ərəfədə müharibəyə başlaya bilməzdik. Hücuma keçsəydik, zəif duruma düşə bilərdik. Birincisi, müharibə şəraitində Ermənistan cəmiyyəti birləşəcəkdi. İkincisi, bizi beynəlxalq aləmdə doğru anlamayacaqdılar ki, Azərbaycan Ermənistandakı qarışıqlıqdan istifadə edib bölgədə müharibəni alovlandırdı”.

**Politoloq hesab edir ki, bununla bərabər istər indi olsun, istər bundan sonrakı dövrdə, Ermənistana hərbi təzyiqi biz davam etdirməliyik. Hücuma başlamasaq belə, hərbi gücümüzü artırmalı, hərbi texnikanın dislokasiyasını daim aparmalıyıq. Yeni hakimiyyət anlamalıdır ki, onlar konstruktiv mövqeyə gəlməyincə, Azərbaycan hərbi təzyiqdən əl çəkən deyil:**

“Əgər Paşinyan Serj Sərkisyanın siyasətini davam etdirəcəksə, Ermənistan uçuruma yuvarlanmaqda davam edəcək, Paşinyan özü isə Sərkisyanın taleyini yaşayacaq. Küçə etirazları ilə hakimiyyətə gələn adamın özünə də qarşı küçə etirazları olacaq. Biz hazırda əlimizdə olan siyasi və iqtisadi amillərdən ciddi istifadə etməliyik. Rusiya ilə danışıqlarımızı intensivləşdirməliyik, Gürcüstanla da iş aparmalıyıq. Rusiya hələ Paşinyana münasibətində qərarlı deyil. Bu situasiya bizə bir qədər üstünlük qazandırır”.

**Politoloq Natiq Miri isə bildirdi ki, Azərbaycanın son bir ayda işğalçı ölkənin daxilindəki vəziyyətdən istifadə etməməsi başa düşüləndir:** “Azərbaycan bilirdi ki, hərbi əməliyyatlara başlasaq, bu, Ermənistanda hakimiyyətdən qovulmaq üzrə olan hərbi xuntanın əlinə fürsət verəcək. Azərbaycan rəhbərliyi çox gözəl anlayır ki, aprelin 13-dən sonrakı dövrdə dünyanın diqqət mərkəzində olan regionlardan biri də məhz Ermənistandır. Belə bir zamanda hərbi əməliyyatlara başlasaydıq həm Rusiya, həm də Qərb tərəfindən çox ciddi təpkilərlə qarşılana bilərdi. İkincisi, Azərbaycan maraqlı idi ki, Ermənistanda etiraz dalğası öz məntiqi nəticəsinə çatsın. Yəni Serj Sərkisyan rejiminin, Qarabağ klanının devrilməsində, tamamilə hakimiyyətdən uzaqlaşdırılmasında Azərbaycan hakimiyyəti maraqlıdır. Məhz bütün bunları nəzərə alaraq, Azərbaycan cəbhə xəttində müəyyən hərbi texnika və canlı qüvvə baxımından cəmləşsə də hər hansı bir hərbi hərəkətlənməyə yol vermədi”.

**Politoloqun sözlərinə görə, Nikol Paşinyan Qarabağ məsələsində konstruktivlik göstərməsə, bu problem həll edilməsə və nəticədə Ermənistan iqtisadi blokadadan xilas olmasa, xalqın etirazları ilə üz-üzə qalacaq. Paşinyan xalqı Qarabağ klanı kimi uzun müddət qorxu altında, müharibə xofu altında saxlaya bilməz:** “Azərbaycan çox gözəl bilir ki, əgər Nikol Paşinyan həqiqətən də xalqın çiynində hakimiyyətə gəlibsə və Ermənistanın iqtisadiyyatının önünü açmaq istəyirsə, bu yol yalnız regionda mühüm dövlətlər olan Azərbaycan və Türkiyə ilə münasibətlərin düzəlməsindən keçir. Bu olmadan Ermənistan iqtisadiyyatının inkişafı mümkün deyil. Artıq sübut edilib ki, Rusiya və İranla əlaqələr Ermənistan iqtisadiyyatını heç də inkişaf etdirə bilməyib. Ermənistan bütün enerji və qlobal layihələrdən məhrum vəziyyətə düşmüş dövlətdir. Bu vəziyyətdən o, yalnız Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqla çıxa bilər. Azərbaycan və Türkiyə ilə anlaşma isə Dağlıq Qarabağ probleminin həllindən keçir. Nikol Paşinyan bu reallığı qəbul edib buna uyğun konstruktiv addımlar atmayacağı halda onun da Ermənistandakı vəziyyəti düzəltməsi mümkün olmayacaq”.

**❑ Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Ekspertlər Putinin növbəti 6 illik “srok”unu dəyərləndirdi

## Politoloqlara görə, Rusiya prezidenti ölkəni çətin vəziyyətdən çıxarmaq üçün yollar axtaracaq

**Mayın 7-də Rusiya prezidenti Vladimir Putinin inauqurasiya mərasimi keçirilib. Bununla da martın 18-dəki prezident seçkilərində qalib gələn Putin qarşıdakı 6 il üçün vəzifəsinin icrasına rəsmən başlayıb.**




**Politoloq Əhəd Məmmədli** Putinin irəlidəki 6 illik prezidentlik müddətini bu cür dəyərləndirdi: “Rusiya varisi SSRİ-nin yolu ilə gedir. SSRİ inkişafının zirvə nöqtəsinə çatdığından sonra tənəzzülə uğramağa başladı və sonucda dağıldı. Fikrimcə, indiki dövr Rusiyanın inkişafının pik nöqtəsidir. Tarixdən də bildiyiniz kimi, inkişafın pik nöqtəsindən sonra tənəzzül başlayır. Putin, sadəcə, bacardıqca bu prosesi uzadır və əsasən də bunu siyasi nəzər nöqtəsindən edir. İqtisadi, sosial baxımdan isə Rusiya geriyə gedir, sanksiyalar artdıqca bu ölkənin vəziyyəti daha da çətinləşir. Putinin gələcək 6 ili zənnimcə, onun son prezident müddətidir. Bu 6 ildə Rusiyanın Qərblə qarşıdurması davam edəcək və bu qarşıdurma davam etdikcə hər iki tərəf üçün geriyə çəkilmə daha çətin olacaq. Soyuq müharibədə olduğu kimi bu qarşıdurmanın mütləq qalibi və məğlubu olacaq. Çox güman ki, məğlub varisi SSRİ kimi Rusiya olacaq. Putinin növbəti 6 ili dünya və region üçün yenə qarşıdurma və müharibələr vəd edir. Amma Azərbaycan üçün bu 6 il faydalı ola bilər, əgər Rusiya ilə Ermənistan qarşı-qarşıya gəlsə. Məncə, indi də bu yöndə Azərbaycan diplomatiyası işləyib, Putini inandırmağa çalışmalıdır ki, Azərbaycan Ermənistandan Rusiyaya daha yaxın ola bilər. Bunu Azərbaycan hökuməti bacarsa, Qarabağı azad etmək üçün yaxşı imkanlarımız yaranacaq. Putinin səhhətində problemlər olmasa, onun 6 ildə prezident olacağına inanıram. Düzdür, Qərblə qarşıdurma dərinləşsə, sanksiyalar artsa, Putinə asan olmayacaq, amma unutmayaq ki, Rusiyada sabit bir nüvə elektoratı var və bu elektorat sona qədər indiki rejimin arxasında duracaq. Üstəlik, Rusiya üçün ac və imperiya olmaq həmişə tox respublika olmaqdan üstün olub. Mən Rusiyada kardinal dəyişiklikləri post-Putin dövründən sonra gözləyirəm. Və bu dövrün də çox uzaqlarda olmadığı qənaətindəyəm”.

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev bildirdi ki, Putinin dördüncü dəfə preziden seçilməsi bütövlükdə yeni heç bir şey vəd etmir:** “Bundan öncəki prezidentliyi dövründə olmuş fəaliyyətini eynilə davam etdirəcək. Xarici, daxili siyasətində, yaxud postsovet məkanında olan dövlətlərə münasibətdə öncədən müəyyən etdiyi siyasi kursun davam etdirilməsi gözlənilir. Hər hansı sahədə dəyişiklik olacaqsa, bu, xaricdən olan təzyiqlər nəticəsində ola bilər. Məcbur qalmayınca geri addım atmaqdan isə söhbət gedə bilməz. Əgər başqa birisi prezident seçilsəydi, o zaman Rusiyanı nələr gözlədiyi, siyasətində hansı dəyişikliyə gedəcəyi barədə yeni proqnozlar vermək olardı. İndi isə yeni proqnozlara ehtiyac yoxdur. Keçirilmiş nominal bir seçkini nəzərə almasaq hər şey göz önündədir, dəyişən heç nə yoxdur. Qərb və ABŞ tərəfindən seçkidən öncəsi kimi sanksiyalar davam etdiriləcək, yeniləri tətbiq olunacaq. İqtisadiyyatda böhran dərinləşəcək. Rusiyanı dünyanın iqtisadi, siyasi məkanından təcridetmə prosesi davam edəcək. Putin bundan öncəki siyasətindən fərqli siyasət yürütməyəcəyi halda heç bir nəticə əldə etməyəcək və qarşıdurma daha da dərinləşəcək. Gərginlik artdıqca isə hərbi dildə təhdidlər önə çıxır. Bu isə Rusiya dövlətçiliyi üçün ciddi təhlükədir. Təhdidləri həyata keçirməyin Rusiyaya daha çox ziyan vura biləcəyini nəzərə alaraq, Putin vəziyyətdən çıxmaq üçün yollar axtarır. Onun üçün açıq şəkildə nələrisə güzəştə getmək imkansız görünür. Hesab edilir ki, ediləcək güzəştlərdən sonra illər ərzində özü haqqında millətin və dövlətin xilaskarı kimi formalaşdırdığı imicinə zərbə dəyəcək, mövqeləri zəifləyəcək, hakimiyyətdən vaxtından əvvəl getmək təhlükəsi meydana gələcək. Bu isə Putinə həyati dərəcədə böyük təhlükədir. Düşünürəm ki, Putin situasiyanın nə dərəcədə ağır olduğunu, nələrə səbəb ola biləcəyini yaxşı anlayır və müəyyən məsələlərdə güzəştə getmək istəyir. Amma istəmir ki, bu addımı Rusiya daxilində onun məğlubiyyəti və ya geriyə çəkilməsi kimi dəyərləndirilsin, qəbul edilsin. Hazırda ona elə bir model lazımdır ki, güzəştlər etməklə geriyə addımlar atsın və bu addımını da qələbə kimi qələmə versin. Eyni zamanda Qərb dünyası da bu güzəştlərə qane olsun. Rusiyanı konkret məsələlərdə ittiham edən Qərb və ABŞ yerində saymırlar. Putini dünya düzəni üçün təhlükə hesab edərək hakimiyyətdən getməsi yolları üzərində çalışırlar. Bu istiqamətdə bütün üsullar qəbul edilir. Ölkədaxili müxalifətin, narazı elektoratın fəaliyyətlərinin artmasından da istifadə ediləcək. Son vaxtlarda Rusiyada eyni vaxtda müxtəlif regionları əhatə edən etiraz nümayişlərinin keçirilməsini də təsadüfi saymaq olmaz. Buna ölkə daxilindən, xaricdən, hətta hakimiyyət içində olan müəyyən gizli qruplardan dəstəyin olması şübhəsizdir. Lakin nəzərə almaq lazımdır ki, Rusiyada müxalifətin güclənməsi Putinin zəifləməsi yolundan keçir”.

**❑ Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 101 (6990) 9 may 2018

# Baş nazirin işdən çıxarılan müavini Elçin Əfəndiyev haradadır?

## "Heç kəs üçün vəzifə əbədi deyil" deyən E.Əfəndiyevin tamaşalarının "Azdrama"nın repertuarından çıxarılması xəbəri təkzib olunur

**Prezident İlham Əliyevin aprelin 21-də yeni hökumətin tərkibinin təsdiq olunması haqqında imzaladığı sərəncama əsasən, baş nazirin müavinləri postunu tutan Abid Şərifov, Elçin Əfəndiyev və İsmət Abbasov işdən azad olunublar. Baş nazirin müavinləri Yaqub Eyyubov yenidən I müavin, Əli Əhmədov və Əli Həsənov müavin kimi yeni tərkibdə yer alıb. Hacıbala Abutalıbov da yeni hökumətdə baş nazir müavini təyin edilib. Qeyd edək ki, bu sərəncamadək baş nazirin 6 müavini vardı. Abutalıbov da daxil olmaqla onların sayı indi 4-ə endirilib.**

Baş nazirin müavinlərinin sayının azaldılacağı barədə xəbərlər hələ seçkidən əvvəl də vardı. Bildirilirdi ki, ən azı iki müavin postu ləğv ediləcək. Həm Abid Şərifovun, həm Elçin Əfəndiyevin səlahiyyətləri digər müavinlər arasında bölüşdürüləcək, bir qismi isə ləğv olunacaq.

Abid Şərifovun səlahiyyətlərinin Bakının sabiq icra başçısı H.Abutalıbova tapşırıldığı məlumdur. Kənd təsərrüfatı üzrə baş nazir müavini olan İ.Abbasovun səlahiyyətlərini belə görünür ki, Y.Eyyubov özü icra edəcək. Amma E.Əfəndiyevin səlahiyyətlərinin kimə dövr ediləcəyi barədə dəqiq bilgi yoxdur. Mümkündür ki, Nazirlər Kabinetində bu məsələ hansısa şöbə səviyyəsində həll edilsin. Sirr deyil ki, E.Əfəndiyev işlədiyi 22 il müddətində xüsusi işi ilə yadda qalmayıb.



**"Heç kəs üçün vəzifə əbədi deyil. Hər şeyin başlanğıcı olduğu kimi sonu da var. Bu baxımdan mənim hökumətdə yer almamağımla bağlı nə üzüntüm, nə də təəccübüm var". Bu sözləri gunnsesi.info-ya açıqlamasında baş nazirin sabiq müavini Elçin Əfəndiyev yeni hökumətdə yer almaması barədə danışarkən deyib. Elçin Əfəndiyev bildirib ki, uzun illər çalışdığı vəzifədə dövlətə xidmət göstərib:** "İnanıram ki, yeni gələnlər də Azərbaycanın uğurları üçün çalışacaq. Prezidentin rəhbərliyi ilə ölkəmizin inkişafı bundan sonra da davam edəcək. Mən yeni təyin olunan şəxslərə uğurlar arzu edirəm". **Bundan sonra hansı işlə məşğul olacağına gəlincə, Elçin Əfəndiyev bunları deyib:** "Bundan sonra yeni əsərlər yazacam. Buna vaxtım olacaq. Sizlər də oxuyarsınız". Yeri gəlmişkən, iddialar var ki, yüksək vəzifədə olduğu vaxt E.Əfəndiyev teatrlarda daha çox öz pyeslərinin səhnələşdirilməsinə çalışıb. Maraqlıdır ki, Akademik Milli Dram Teatrının 2018-ci ilin aprel ayı üçün olan repertuarında Əfəndiyevlərə məxsus dörd tamaşa yer tutduğu halda vəzifədən çıxarıldıqdan sonra vəziyyət dəyişib. 2018-ci ilin may ayı üçün olan repertuarda Əfəndiyev imzası ilə cəmi bir tamaşaya yer verilib. (mənbə: sputnik.az). Teatrın mətbuat xidməti isə Əfəndiyevlərin əsərləri əsasında hazırlanan tamaşaların səhnədən yığışdırılmasını təkzib edib.

E. Əfəndiyev 1943-cü il may ayının 13-də xalq yazıçısı İlyas Əfəndiyevin ailəsində anadan olub.

Elçin Əfəndiyev Bakı Dövlət Universitetinin filologiya fakültəsini, Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun ədəbiyyat nəzəriyyəsi üzrə aspiranturasını bitirib, "Azərbaycan bədii nəsri ədəbi tənqiddə" mövzusunda namizədlik, "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib.

Əsərləri müxtəlif xarici dillərə tərcümə edilib.

Azərbaycan Ali Sovetinin deputatı olub.

Elçin Əfəndiyev həm də Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyəti - "Vətən" Cəmiyyətinin sədri vəzifəsində çalışır. Bakı Dövlət Universitetinin professorudur. Bir sıra dövlət komissiyalarının sədri, nüfuzlu Azərbaycan və beynəlxalq ədəbi, ictimai qurumlarının üzvüdür.

22 il baş nazirin müavini olmuş E.Əfəndiyevin mayın 13-də 75 yaşı olub.

Qeyd edək ki, E.Əfəndiyevin qardaşı Timuçin Əfəndiyev də uzun müddət-27 il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru olub. 2014-cü ildən bu günə qədər isə Bakı Xoreoqrafiya Akademiyasının rektorudur. Sabiq nazir müavininin qızı Günay Əfəndiyeva isə Türk Mədəniyyəti və İrsi Fondunun prezidentidir.

❑ **"YM"**

# "Bəzi banklar bağlanacaq" iddiası

## Əkrəm Həsənov: "Bankların ən əsas məsələsi olan problemli kreditlər artmaqda davam edir"

**Maliyyə Bazarlarına Nəzarət Palatası rəsmisi bank sektorunda müsbət göstəricilərin qeydə alınması ilə bağlı məlumat verib. "APA-Economics"in məlumatına görə, Bakıda "Rəqəmsal Biznes Trendləri" devizi altında keçirilən II Maliyyə və İnvestisiya Forumunda Maliyyə Bazarlarına Nəzarət Palatasının Bank Fəaliyyətinə Nəzarət Departamentinin Xarici Nəzarət İdarəsinin rəisi Taleh Nəhmətov çıxış edərək, bank sektoruna müsbət təsir göstərən iqtisadi inkişafdan bəhs edib.**

O bildirib ki, xarici iqtisadi təsirlərə baxmayaraq 2017-ci ildə Azərbaycan iqtisadiyyatın inkişafını bərpa edə bilib: "Artıq Azərbaycandakı 12 faizlik inflyasiya 4 faizə enib. Qeyri-neft ümumi daxili məhsulu 2,9 faiz təşkil edib. İqtisadiyyatın müsbət trendləri bank sektoruna da təsir göstərməkdədir".

**Tahir Nemətov qeyd edib ki, artıq bank sektorunda müsbət tendensiyalar müşahidə edilir:** «Maliyyə sektorunun 97 faizini banklar, 2,7 faizini sığorta sektoru təşkil edir. Artıq artım tempi bərpa edilib, yığımlar və öhdəliklərdə artımlar var. Sadəcə, kreditləşmə sahəsində biz az ləngimə var. Sektorda çox yüksək likvid aktivlər 6,1 milyard təşkil edib. Cari öhdəliklər 10,6 milyard, əmanət portfeli 7,5 milyard manat olub. Məcmu kapital 3,2 milyard dollar olub. Ötən il ərzində bank sektorunda kapital adekvatlığı 19 faiz təşkil edib. Verilmiş kreditlərdə də müsbət tendensiya var. 2017-ci ildə 5 milyard manat kredit verilib. Bunun 64 faizi real biznes məqsədilə verilib".

**Bəs bank sektorundakı durumu yaxından izləyən iqtisadçı ekspertlər bank sektorunda irəliləyişlərin olması ilə bağlı fikirlərlə razıdırlarmı?**

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov bildirdi ki, rəqəmlərdə müəyyən müsbət tendensiya müşahidə olunsa da, ümumilikdə bank sektoru haqqında bunu demək mümkün deyil:** "Həqiqətən də Azərbaycanda ötən ilin sonundan başlayaraq əmanətlərin həcmi artıb. Bu da onunla bağlıdır ki, milli valyutanın məzənnəsi sabitləşib. Həmçinin manatla əmanətlər üzrə yüksək faizlər tətbiq olunur. Bunun sayəsində əmanətlərin həcmində cüzi artım var. Lakin bu hələ o demək deyil ki, bank sisteminə etimad artıb. Sadəcə, kimlərsə qısamüddətli gəlir əldə etmək istəyir.



Digər tərəfdən, banklar məcbur olub problemli kreditlərinin bir hissəsini siliblər, bu səbəbdən də bu kreditlərin həcmi azalıb. Likvidlik göstəriciləri isə ona görə artıb ki, banklar kredit vermirlər. Bu səbəbdən bankların sərbəst vəsaitləri çoxalıb. Bunun nə dərəcədə yaxşı və ya pis göstərici olması da birmənalı deyil. Ola bilər ki, hansısa müsbət rəqəmlər qeydə alınıb. Ancaq mən hesab edirəm ki, bankların ən əsas məsələsi olan problemli kreditlər artmaqda davam edir. Bu il çox güman ki, əmanətlərin həcmi də azalacaq. Çünki faiz dərəcələri düşür".

**Kredit portfelində biznes kreditlərinin həcminin artmasına gəlincə, Əkrəm Həsənov bunun nə dərəcədə real olduğunu aydınlaşdırmağın mümkün olmadığını bildirdi:** "Biznes adı altında çox kreditlər verilib. Hamısının da real biznesə verildiyi qeyd edilir. Bank sektorunun ötən illərdəki təcrübəsi onu göstərdi ki, bəzi hallarda kreditin ayrıldığı biznes qurumları, ümumiyyətlə, mövcud olmayıb. O baxımdan bu rəqəmlərin nə dərəcədə reallığa uyğun olması mübahisəli məsələdir. Ümumilikdə, kredit verilməsi isə davam edir".

**Hazırda başlanan yeni tendensiya üzrə verilən kreditlərin sonradan geri dönməmə ehtimalına gəlincə, Ə.Həsənov bankların öncəki təcrübədən dərs çıxartdıqlarını vurğuladı:** "Hazırda verilən kreditlər əvvəlki kimi necə gəldi verilmir. Etiraf etməliyik ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının nəzarəti Mərkəzi Bankdan daha güclüdür və daha effektivdir. Banklar özləri də son illərdə baş verənlərdən sonra kredit verərkən ehtiyatlı davranırlar. Həmçinin Palatadan daha çox çəkinirlər. Bu həqiqətən də belədir, banklar MBNP-ni daha ciddi qəbul edirlər. Əvvəllər banklar bilirdilər ki, istənilən problem zamanı Mərkəzi Banka gedib orada kiminləsə dil tapa bilərlər. Ancaq artıq belə deyil. Palata bir çox məsələlərdə bankları sıxır, yarandığı gündən etibarən məsuliyyətli kreditləşmə siyasətini tətbiq etdi. Ümid edirəm ki, məhz bu faktorların nəticəsi olaraq hazırda verilən kreditlər daha düzgün verilir. Palatanın nəzarət məsələsində əsas problemi məhz kadr problemidir. Burada çalışan kadrlar bank rəhbərlərinin işlədə biləcəyi variantları öncədən bilməlidirlər. Bu mənada Palatanın zəif nöqtələri var, istəsə də tam nəzarət edə bilmir. Ümumilikdə isə ümid edirəm ki, bu gün verilən kreditlərin taleyi əvvəlkilərlə eyni olmayacaq".

**Əkrəm Həsənov onu da vurğuladı ki, bu il bir neçə bankın bağlanması gözlənilir:** "Çünki bu bankların xilas olması üçün real tədbir görən yoxdur. Problemli bankların əmanət qəbul etməsini məhdudlaşdırıblar, digər tərəfdən də kredit vermirlər. Qeyri-sağlam banklar bu gedişlə bağlanmağa məcbur olacaqlar. Əgər hər hansı addımlar atılmasa, hazırki gedişat onu göstərir ki, ilin sonuna doğru bəzi banklar bağlanacaq. Hazırda ciddi risk altında olan bir neçə bank var".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**Bu gün - 9 may alman faşizmi üzərində qələbənin növbəti, 73-cü ildönümüdür. Əfsus ki, bəşəriyyət bu gün də faşizmin ən müxtəlif təzahürləri ilə rastlaşmaqdadır. Onların arasında irqçi düşüncəyə və ksenofobiyaya söykənən erməni faşizmi də var. Azərbaycan xalqı 30 ildən çoxdur faşizmin bu növündən, erməni aqressiv millətçiliyindən əziyyət çəkir. Nonsens də budur ki, erməni faşistləri bu gün alman faşizmi üzərində qələbəni qeyd edən Rusiya kimi havadarının köməyi ilə Azərbaycan ərazilərində etnik təmizləmə aparıb, Xocalı soyqırımı törədiblər.**






# Qarabağ düyününü müharibə, yoxsa diplomatiya açacaq? - kritik gözlənti

## Ermənistandakı proseslər hərb, yoxsa sülh dilemmasını tezliklə gündəmə gətirəcək; politoloqlar bir daha dinc nizamlama və müharibə ehtimalları barədə...

Azərbaycan xalqı sözsüz ki, bunları unutmayıb, heç vaxt unutmayacaq. Eyni zamanda özünün ərazi itkisi ilə, işğalla heç vaxt barışmayacaq. Həm də o səbəbə ki, bu gün Ermənistan adlı saxta dövlətin özü tarixi Azərbaycan, türk torpaqlarında təşəkkül tapıb - yenə məhz müstəsna olaraq Rusiyanın sayəsində. Növbəti torpaq ilhaqına Azərbaycan yol verə bilməz. Ölkə rəsmiləri, prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, torpaqlarımızda ikinci saxta erməni dövlətinin yaradılmasına imkan verilməyəcək və bunu gözləyənlər boşuna gözləyirlər.

*****

"Azərbaycan Dağlıq Qarabağın müstəqilləşməsinə, yaxud da Ermənistana birləşdirilməsinə əsla yol verməyəcək". "Yeni Müsavat" xəbər verir ki, bu sözləri axar.az-a açıqlamasında **sabiq dövlət müşaviri Qabil Hüseynli** deyib. Politoloq bildirib ki, Prezident İlham Əliyevin son zamanlar İrəvanla bağlı siyasəti özündə bir sıra mühüm siyasi aspektləri ehtiva edir.

"Heç kimə sirr deyil ki, ötən əsrin 20-ci illərində İrəvan əhalisinin az qala 80 faizi Azərbaycan türklərindən ibarət olub. İndiki Ermənistan ərazisinin 70 faizdən çoxunu Ermənistan türkləri təşkil edib. Hətta bir az uzağa getsək, Türkmənçay və Gülüstan sülh müqaviləsinədək nə Dağlıq Qarabağda, nə də hazırkı Ermənistan ərazisində erməniyə rast gəlmək mümkün idi. O üzdən Azərbaycan bu gün həmin faktları açmaqla xalqın hafizəsini təzələmək istəyir və eyni zamanda ermənilərə açıq mesaj göndərir. Ölkə başçısı da əsas vurğunu məhz buna edir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilləşməsinə, yaxud da Ermənistana birləşdirilməsinə əsla yol verməyəcək. Bakı İrəvanın qədim Azərbaycan torpağı olmasını və bu şəhərin Türkiyə, Gürcüstan, Rusiya və ingilislərin təzyiqi nəticəsində ADR tərəfindən paytaxt kimi ermənilərə 99 illiyinə icarəyə verilməsi ilə bağlı real tarixi faktları gündəmə gətirməklə bütün dünyaya ermənilərin gəlmə xalq olduğunu sübut edir və Ermənistana "dur" mesajını verir", - deyə o qeyd edib.

**Politoloq bildirib ki, hazırda Azərbaycanın qarşısında duran əsas hədəf BMT və dünya tərəfindən tanınmış ərazi bütövlüyünü təmin etməkdir:** "Ermənistan Dağlıq Qarabağı və onun hüdudlarından kənar 7 rayonu mənimsəməyə başlayıb. Bu, baş verməsəydi, heç olmasa, onların sülhə meylliliyi barədə nəsə düşünmək olardı. İrəvanın yeritdiyi siyasət onu göstərir ki, ermənilər sülhü imitasiya edərək, işğal edilmiş torpaqlarımızı geri qaytarmaq istəmirlər. Belə görünür, Qarabağ problemi müharibə yolu ilə həllini tapacaq".

**Ekspert bu arada Rusiyanın Ermənistandan uzaqlaşmayacağını da söyləyib:** "Rusiya Cənubi Qafqazı özünün "arxa bağçası" hesab edir və o üzdən Ermənistanı Qərbə, xüsusilə də NATO-ya güzəştə getmək fikrində deyil. Ona görə də Rusiya bu torpaqlardan dördəlli yapışıb. Rusiyanın Ermənistanla bağlı çox ciddi fikirləri var. Rusiya ondan min bir tellə asılı olan forpostunun qorunub saxlanılmasının tərəfdarıdır və bunu həyata keçirəcək".

*****

Rusiyanın Ermənistanda möhkəmlənməsi isə bir yandan pisdirsə, digər yandan Qarabağ məsələsinin çözümü üçün nəzəri baxımdan yaxşıdır. O kontekstdə ki, ikinci halda münaqişənin nizamlanması üçün Moskva ilə anlaşmaq yetərli ola bilər. Ancaq Rusiya konfliktin tezliklə həllində maraqlıdırmı? Proseslərin gedişi nə vəd edir, yoxsa böyük müharibə qaçılmaz olacaq?

**Ukraynalı politoloq İqor Semivolos hesab edir ki, öncə Ermənistanda situasiyanın inkişafını gözləmək lazımdır. "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri o, rusdilli vesti.az saytın açıqlamasında deyib.**

"Hər necə olmasa, biz bu ölkədə daxili dinamika müşahidə edirik - hansı ki, artıq 20 ildən çox idi yox idi. Mənə elə gəlir ki, Ermənistanda siyasi böhran inkişaf elədikcə Azərbaycanın işğal edilmiş ərazilərinin gələcəyi haqda diskussiyalar daha konstruktiv xarakter alacaq. Əgər tutaq ki, təzə seçilmiş baş nazir Nikol Paşinyan radikal vətənpərvər obrazı yaratmaq üçün davakar ritorikadan istifadə etməyə cəhd göstərsə *(belə bir şey isə onun davranışı göstərir ki, mümkündür)*, o zaman onun baş nazirliyi qısa və kədərli olacaq", - deyə analitik vurğulayıb.

**Başqa yandan, ukraynalı ekspert Ermənistanda müxalifətin hakimiyyətə gəlməsi ilə Dağlıq Qarabağ ixtilafının tezliklə həll olunacağını gözləmir:** "Buna ümid etməyə dəyməz. Onların buna mandatı yoxdur və bu mövzunu da yaqin ki, qaldırmalı olmayacaqlar. Yalnız ənənəvi vədlərlə kifayətlənəcəklər. Ehtimal ki, Qarabağ yeni elektoral sikldə diskussiya mövzusu olacaq - nə vaxt ki, Ermənistanın inkişafı üçün resurslar məsələsi gündəmə gələcək. Dağlıq Qarabağ problemi yoluna qoyulmadan, Ermənistanın iqtisadi inkişaf şansları çox kiçikdir".

*****

Zatən, sonuncu xəbərdarlığı əcnəbi ekspertlər xeyli müddətdir edirlər. Son vaxtlar bunu bir sıra erməni təhlilçiləri də etiraf eləməyə başlayıblar. Lakin etiraf kifayət deyil. Gərəkdir öncə Ermənistan rəhbərliyi blokadanın ötürülməsi yönündə real addımlar atsın. Bu isə Dağlıq Qarabağ probleminin ədalətli həllindən, iki mühüm qonşu - Azərbaycan və Türkiyə ilə siyasi-diplomatik, iqtisadi-ticari əlaqələrin bərpasından keçir. Ən azından, ilkin mərhələdə Dağlıq Qarabağ ətrafındakı 5-6 rayonun qeyd-şərtsiz azad edilməsi vacibdir.

Təəssüf ki, erməni cəmiyyətində, Ermənistanın siyasi elitasında Qarabağla bağlı hələ də olduqca yanlış, radikal, eyni zamanda perspektivsiz bir mövqe hakimdir. Bu da ondan ibarətdir ki, ermənilər həm blokadadan çıxmaq və qonşularla əlaqələr qurub inkişaf eləmək, həm də Dağlıq Qarabağa nəzarəti özlərində saxlama istəyirlər. Bu isə mümkün deyil. Necə ki, 30 ildir mümkün olmayıb.

Lakin belə "pat" vəziyyəti sonsuzadək də sürə bilməz. Çünki Azərbaycan işğalla əbədiyyən barışmaq niyyətində deyil. Gec-tez əsas suala aydınlıq gələcək: Qarabağ düyünü necə açılacaq - müharibə, yoxsa diplomatiya ilə?..



## "Ermənistan hələ öz başına çarə tapsın, sonra..." - Bayram Səfərov

**"Ermənistan bu dəqiqə elə vəziyyətdədir ki, heç nəyə təsir edə bilməz". Bunu Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri Bayram Səfərov Ermənistanın daxilində gedən proseslərin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinə təsiri ilə bağlı suala cavabında deyib (APA).**

B. Səfərov bildirib ki, Ermənistan öz başının hayındadır. "Ermənistan hələ öz başına bir çarə tapsın, ölkə daxilində sabitlik yaratsın, sonra nəyəsə təsir edər. 26 ildir erməni xalqının başına müsibətlər gətirilir, ac-yalavac yaşayırlar. Dünyanın inkişaf etdiyi XXI əsrdə daxili şəraitə diqqət ayırsınlar, sonra Qarabağ haqqında iddiaları olsun. Ermənistanın Qarabağla bağlı heç bir iddiası ola bilməz. Bütün dünya ictimaiyyəti bilir ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir", - deyə o əlavə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 101 (6990) 9 may 2018

# Tanınmış jurnalistlər Türkiyədə onu prezident görmək istəyir

**Türkiyədə iyulun 24-də növbədənkənar prezident və parlament seçkiləri keçiriləcək. Artıq ölkə rəhbəri olmaq üçün 4 siyasətçi iddiasını irəli sürüb.**

Hakim partiya olan AKP və müxalif qurum MHP-nin yaratdığı "Cümhur" İttifaqı hazırkı prezident Rəcəb Tayyib Ərdoğanla seçkilərə gedir. Cümhuriyyət Xalq Partiyası Muharrem İncenin namizədliyini irəli sürüb. Meral Akşener rəhbəri olduğu İyi Partiyanın namizədidir. Səadət Partiyasının lideri Təməl Karamollaoğlu da iddiaçılar sırasındadır.

Azərbaycanda qardaş ölkədəki seçki prosesi maraqla izlənilir. "Yeni Müsavat" tanınmış yazarların kimi prezident görmək istədikləri ilə bağlı mövqelərini öyrənib.

**"Yeni Müsavat"ın yazarı Kənan Rövşənoğlu namizədlərin hər birinin ilk turda qalib gəlmə imkanlarının zəif olduğunu düşünür:** "Mahiyyət etibarı ilə builki seçkilər əvvəlki illərlə müqayisədə daha böyük maraq və diqqət cəlb edir. Bu da həm regional hərbi-siyasi vəziyyət, həm də ölkə daxilindəki situasiya ilə əlaqədardır. Sonuncu prezident seçkilərində ənənəvi parlament müxalifəti AKP iqtidarı qarşısına zəif də olsa, vahid namizədlə çıxmışdı, ancaq indi namizədlərin sayı və keyfiyyəti baxımından fərqlidir. Akşener yeni simadır, üstəlik, MHP-dən çıxsa da, digər siyasi cərəyanlara da yad isim deyil. Məhərrəm İncə isə yüksək natiqlik qabiliyyəti olan populyar siyasətçidir. Ərdoğan son 16 ildə Türkiyəni idarə etmiş, güclü siyasi təşkilatçı, meydanlarda əvəzsiz olan bir liderdir. İlk baxışdan da aydındır ki, ikinci tur mümkündür. Ərdoğanın ayrılıqda bütün namizədlərdən şansı daha çoxdur, ancaq ikinci tura qalarsa sürpriz nəticələr də mümkündür".





**Kənan Rövşənoğlu:** "Onunla meydan kampaniyasında yarışmaq çətindir"
**Aynur Camalqızı:** "Atatürkə qarşı olmayan qüvvələrin qalib gəlməsini istərdim"
**Aysel Əlizadə:** "Akşenerin seçilməsini istərdim"

**"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı hansı namizədin qalibiyyətini istəməsi barədə ad çəkmədi:** "Türkiyə bizim üçün əziz, doğma bir ölkədir. Ən azı Azərbaycan qədər sevdiyimiz bir dövlətdir. Orada gedən proseslərə Türkiyə vətəndaşları qədər olmasa da, kifayət qədər həssaslıqla diqqət ayırırıq, bu proseslər bizi çox maraqlandırır. Konkret hansı qüvvəni müdafiə etməyimə gəlincə, çox çətin bir sualdır. Ümumiyyətlə, Türkiyənin yuxarıdan başladılan proses olaraq dinə meyllənməsindən çox böyük narahatçılıq duyuram. Düşünürəm ki, dünyəvi dəyərlər qardaş ölkədə məni və digərlərini narahat edən dəyərlərə mütləq qalib gəlməlidir. Türkiyədə Atatürk tərəfindən qoyulmuş bir ideologiya var. Bu dəyərlər sisteminin dağılmasının tərəfdarıyam. Atatürkə, onun dəyərlərinə qarşı olmayan, bunu qoruyan qüvvələrin qalib gəlməsini istərdim. Kim güclüdürsə, yuxarıda qeyd etdiyim dəyərlərə səmimidirsə, həmin qüvvələr hakimiyyətə gəlməli, Türkiyə siyasətini o qüvvələr idarə etməlidir".

**Avropa.info saytının baş redaktoru Ruslan Başirli Ərdoğanın qələbəsini istəyir:** "Türkiyədə keçiriləcək prezident seçkilərini Rəcəb Tayyib Ərdoğanın qazanacağını düşünürəm. Nəinki Türkiyənin, bölgənin təhlükəsizliyi və bölgədə oynanılan oyunlara dirəniş göstərməsi baxımından da Ərdoğanın yenidən prezident postunda qalması şərtdir. Kürd seçmənin də mühüm bir hissəsinin hazırkı prezidentə səs verəcəyini düşünürəm. Ərdoğan son illər Türkiyəyə qalibiyyət ruhunu aşılaya bilmiş bir liderdir. Düşünürəm ki, Ərdoğan əksər seçici kütləsinin səsini alacaq".

**Xanım yazar Aysel Əlizadə qadın həmrəyliyi nümayiş etdirdi:** "Akşener addım-addım, ciddi strateji ilə bu seçimlərə yol alıb. Zəngin siyasi təcrübəsi var. Seçilməsini istərdim. Feminist olaraq bir qadın siyasi liderin bu cür uğurlu duruşu şəxsən mənim üçün çox önəmlidir. Qadınlara ciddi motivasiyadır. Akşener bu gün Türkiyə siyasi arenasında ciddi fiqura çevrilib".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Qızını erməniyə verən azərbaycanlı necə diaspor lideri olub...



**Sərdar Cəlaloğlu:** "Problem onun qızının erməniyə ərə getməsi deyil, belə bir adamın diaspor lideri olmasıdır"
**Əliməmməd Nuriyev:** "Diaspor təşkilatları qurularkən onu yaradanlar prosesə qeyri-ciddi yanaşıblar"

**Ötən həftənin gündəm mövzularından biri də Rusiyada fəaliyyət göstərən Azərbaycan Milli Mədəni Muxtariyyətinin Moskva regional bölməsi sədrinin qızının erməni oğlanla ailə həyatı qurması oldu. Moskvada yerləşən erməni iş adamlarına məxsus restoranların birində baş tutan nikah mərasimində azərbaycanlılarla yanaşı ermənilər də iştirak etmişdi. Həyat yoldaşı da erməni olan Ağakişi Kərimov adlı diaspora nümayəndəsinin ailəsində baş verənlər Moskvada yaşayan azərbaycanlılar, o cümlədən ölkə ictimaiyyəti tərəfindən qəzəblə qarşılandı.**

İctimai fikir adamlarının bu məsələ ilə bağlı fikirləri isə birmənalı deyil. Bir çoxları belə bir hadisənin olmasını arzuolunmaz hesab etsə də, cəmiyyətin verdiyi sərt reaksiyanın beynəlxalq aləm tərəfindən normal qarşılanmayacağını bildirirlər.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, bu məsələnin aqressiv şəkildə müzakirə edilməsi doğru deyil:** "Konkret bu fakta nəzər salsaq, burada bir azərbaycanlı qızını erməniyə ərə verməyib. Bu, qarışıq bir ailədir və qızın anası da faktiki olaraq erməndir. Bu məsələ dinimizdə belə nəzərdə tutulub ki, bir müsəlman qadın o zaman bir xristiana ərə gedə bilər ki, həmin kişi İslamı qəbul edib müsəlman olsun. Bir müsəlman kişi o zaman xristian qadınla evlənə bilər ki, qadın İslamı qəbul eləsin.

Digər tərəfdən, məsələnin siyasi tərəfi də var. Biz bu gün Ermənistanla hərbi münaqişədəyiksə, düşmənçiliyimiz erməni xalqı ilə deyil. Biz torpaqlarımızı işğal edən, rusun əlində alətə çevrilən və bizim dövlətimizin müstəqilliyinə imkan verməyən ideyaya, şüura qarşı düşmənik. Əgər Qarabağı Ermənistan yox, məsələn, Gürcüstan işğal etsəydi, bizim düşmənimiz Gürcüstan, rus işğal etsə rus olacaqdı. Doğrudur, erməni xalqı da bu prosesdə ölkəsini dəstəkləyir. Ancaq orada elə deputatlar, ictimai şəxslər var ki, açıq şəkildə deyirlər Qarabağ Azərbaycanın torpağıdır, onu qaytarıb vermək lazımdı. Ermənilər yaxşı başa düşürlər ki, Qarabağdan imtina etməyənə qədər Rusiyanın caynağından xilas ola bilməyəcəklər. Lap Böyük Ermənistan yaradılsın, dünyanın yarısı onların olsun, ancaq müstəqillikləri və suverenlikləri olmasa, bunun heç bir mənası yoxdur. Bunu ermənilər başa düşməlidir. Ona görə də bu evlilik məsələsini müzakirə etmək, buna görə kimlərisə qınamaq bizim millət haqqında, Azərbaycan haqqında yanlış təsəvvür formalaşdırır. Belə çıxır ki, biz ermənilərə o dərəcədə düşmənik ki, bir erməninin azərbaycanlı ilə ailə qurmasına belə dözə bilmirik. Ona görə də bu məsələni bu qədər müzakirə etmək yanlışdır. Konkret fakta gəlincə, erməniyə ərə gedən qızın ana tərəfi ermənidir və onun haqqı var ki, iki tərəf arasında seçim eləsin və ana tərəfinə üstünlük versin".

**S.Cəlaloğlunun sözlərinə görə, burada önəmli məqam həyat yoldaşı erməni olan şəxsin Moskvada diaspora rəhbəri olmasıdır:** "Bu artıq onu göstərir ki, Azərbaycanda diaspora fəaliyyəti üzərində nəzarət yoxdur və bir çox hallarda bu diaspora ölkəmizin əleyhinə də işləyə bilər. Rusiyada o qədər azərbaycanlı yaşayır. Nəyə görə həyat yoldaşı erməni olan adam diasporaya rəhbərlik edir. Bizim sovet dövründən də təcrübəmiz var ki, qarışıq ailələr milli təəssüb hissindən uzaq olurlar, milli maraqları o qədər də önəmsəmirlər. Bu onu göstərir ki, heç də hər yerdə diaspora fəaliyyəti düzgün qurulmayıb. O səbəbdən bu günə qədər milyardlarla pul xərclənməsinə baxmayaraq Azərbaycan diasporası Ermənistan diasporasından geridə qalır".

**Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev də "Yeni Müsavat"a açıqlamasında belə bir nikahın bağlanmasından daha çox həyat yoldaşı erməni olan şəxsin diaspora təşkilatına rəhbərlik etməsini qınadı:** "Burada söhbət könül bağlarından, sevgidən gedirsə, buna kənar müdaxilələrin təsiri yerinə düşməzdi. Bu iki şəxs arasında baş verən münasibətdir. Onlar artıq elə yaş həddindədirlər ki, bu məsələdə müstəqil qərar qəbul etmək imkanındadırlar. Ancaq əlbəttə ki, hazırda Azərbaycanla Ermənistan arasındakı hərbi vəziyyət insanı bir qədər düşünməyə məcbur edir. Xüsusən də ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımları nəzərə alsaq, burada qınamaq üçün əsaslar yarana bilər. Ancaq mənim şəxsi qənaətim odur ki, bu cür şəxsi məsələlərə müdaxilə etmək və müzakirə etmək bir qədər doğru deyil.

Ermənistanın sabiq prezidenti Serj Sərkisyanın belə bir sözü var idi ki, erməni və Azərbaycan xalqları bir-biri ilə uyuşmur. Ancaq bu nikah onun sözlərinin əksini sübut etdi və keçmiş prezidentin irqçi düşüncəsini boşa çıxartdı. Digər məsələ, həmin diaspora sədrinin həyat yoldaşının da erməni olmasıdır. Həmçinin o insan uzun illərdir Azərbaycandan kənardadır. Məsələnin əsas problemli nöqtəsi odur ki, zamanında bu diaspor təşkilatları qurularkən onu yaradanlar prosesə qeyri-ciddi yanaşıblar. Belə bir şəxsin Rusiyanın hansısa şəhərində diaspora qurumuna rəhbərlik etməsi nonsesdir".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

**Azərbaycanda növbədənkənar parlament seçkilərinin keçiriləcəyi barədə söhbətlər bitmək bilmir.**

# DSK-lara oktyabrda seçkiyə hazırlaşmaq tapşırığı

## Növbədənkənar parlament seçkiləri söhbətinə Əli Əhmədovun da açıqlaması son qoymadı

"Azərbaycanda növbəti parlament seçkiləri 2020-ci ildə keçiriləcək".

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının icra katibi Əli Əhmədov bildirib ki, mediada bu barədə tez-tez xəbərlər yayılsa da növbədənkənar parlament seçkilərinin keçiriləcəyi barədə onda məlumat yoxdur: "Mən belə bir şey bilmirəm. Məlum olduğu kimi, Azərbaycan növbəti parlament seçkiləri 2020-ci ildə keçiriləcək".

Əli Əhmədovun kifayət qədər məlumatlı adam olması bəllidir. Lakin nəzərə alsaq ki, növbədənkənar seçkilər qərarını Əli Əhmədov yox, ölkənin birinci şəxsi verir, belə bir qərarın qəfildən verilməyəcəyini, hər halda, hətta Əli Əhmədov da qəti şəkildə deyə bilməz. 11 aprelə növbədənkənar prezident seçkisinin təyin edilməsi təcrübəsi bunu bir daha təsdiq eləyir. Növbədənkənar prezident seçkilərinə gediləcəyinin gözlənildiyi barədə bir sıra siyasətçilər açıqlamalar verdiyi zamanlarda da YAP-ın rəhbərliyinə daxil olan bəzi şəxslər təkzib edirdilər, belə şeyin gözlənilmədiyini deyirdilər. İndi də az qala hər gün məlumatlar yayılır ki, növbədənkənar parlament seçkiləri qərarının verilməsi gözlənilir. Hətta dünən redaksiyamıza belə bir məlumat daxil olub ki, Sumqayıtdakı dairə seçki komissiyalarına "oktyabr ayına deputat seçkilərinə hazırlaşın" tapşırığı verilib. Belə bir tapşırığın digər DSK-lara da verildiyi istisna deyil.



**Növbədənkənar prezident seçkilərinin keçiriləcəyini təxminən bir il öncədən proqnozlaşdıran siyasətçilərdən biri olan VİP sədri Əli Əliyev hesab edir ki, növbədənkənar parlament seçkilərinə gedilməsi də istisna deyil:** "Son illərin təcrübəsi göstərir ki, Yeni Azərbaycan Partiyası rəhbərliyinin əsas siyasi proseslərdən xəbəri olmur. Elə son prezident seçkiləri ilə bağlı da Siyavuş Novruzov "olmayacaq" fikrini işlətmişdi. Mənim yerlərdən aldığım məlumata görə, payızda növbədənkənar parlament seçkiləri keçiriləcək. Çünki bunun başqa əlamətlərini də görürəm. İlk əlamət prezidentin təyinatlar zamanı deputat korpusundan səxavətlə istifadə etməsidir. Seçkidən sonra 4 deputat icra işlərinə, hökumətin tərkibinə cəlb edilib. Təbii yolla boşalan kreslolar var. Ən vacib səbəblərdən biri parlament kontingentinin hökumətin tərkibinə uyğunsuzluğudur. Bilindiyi kimi, oliqarxların cavabdehlik daşıdığı deputatlar vardır. Bir sıra oliqarxların vurulduqdan, digərlərinin zəif hala gətirilməsi qərarından sonra, tərkibi dəyişmək labüddür. Həm də daxili çəkişmələrdəki real vəziyyət hökumətə yansıdıqdan sonra parlamentin də real siyasi dəngəyə uyğunlaşdırılması zərurətə çevrilib. Odur ki, seçkilərin payızda keçirilməsi ehtimalı çox yüksəkdir.

Növbədənkənar prezident seçkiləri bir daha göstərdi ki, məqsədəuyğunluğu olduqda belə seçkilər keçirilə bilər. İnkişaf etmiş dövlətlərdə də bu praktika tətbiq edilir. Məsələn, Türkiyə hazırda növbədənkənar prezident seçkilərinə gedir. Başqa dövlətlərdə də buna bənzər addımlar atılır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Müxalifət partiyalarının yay planları

## Aktivlik gözlənilir?

**11 aprel prezident seçkilərindən sonra müxalifət partiyalarının fəaliyyəti demək olar ki, nəzərə çarpmır. Qarşıdan isti yay ayları gəlir, müxalifət düşərgəsinin passivlikdən çıxması üçün partiyaların planında nələrin olduğunu araşdırdıq.**


Əli Əliyev


Tural Abbaslı

**ADP sədrinin müavini Taliyət Əliyev** bildirdi ki, prezident seçkilərindən sonra partiyanın yenidən təşkilatlandırılması ilə bağlı tədbirlər planı hazırlanıb. Həmin tədbirlər planına uyğun olaraq işlər davam etdiriləcək: "Həmin plana görə, ilk öncə Bakı şəhəri üzrə yerli təşkilatlarımızın yenidən qurulması və təşkilatlandırılması həyata keçirilməlidir. Sonra isə bu prosesin kənd rayonlarında davam etdirilməsi nəzərdə tutulub".

**VİP sədri Əli Əliyev** isə bildirdi ki, yerlərdə təşkilatlanmanın daha da gücləndirilməsi, gözlənilən növbədənkənar parlament seçkilərinə hazırlıq işləri qarşıdakı yay aylarında VİP-in planlarında olan işlərdir.

**AĞ Partiyanın sədri Tural Abbaslı** isə bildirdi ki, iş planlarını fəsillərə uyğun deyil, partiyanın hədəflərinə uyğun qurmağa çalışırlar: "Yeni bizim yay aylarında görəcəyimiz işlər artıq əvvəlcədən müəyyənləşdirdiyimiz işlərdir. Bu aylarda biz yenə partiyanın təşkilatlanması istiqamətində işləri davam etdirəcəyik, eyni zamanda AĞ Partiyanın cəmiyyətə təqdimatı və PR məsələləri istiqamətində də işlərimizi intensivləşdirmək niyyətindəyik. Biz onu da nəzərə alırıq ki, siyasi arenada növbədənkənar parlament seçkiləri mövzusu da gündəmdədir və bu prosesə də hazırlıq işləri yürüdəcəyik. Ola bilsin bu hakimiyyət növbədənkənar parlament seçkiləri keçirməsin, ancaq parlamentə boşalan 6 yer üçün seçki keçirilməsi şərtdir. Biz AĞ Partiya olaraq burada da tam gücünüzlə iştirak etmək niyyətindəyik. Bütün bu sadaladıqlarımı nəzərə alanda deyə bilərəm ki, yay ayları da bizim üçün çox aktiv fəaliyyət dönəmi olacaq. Həmçinin digər müxalif partiyalarla da əməkdaşlıq istiqamətində bəzi addımlar atırıq və partiyamızın daxili və xarici əlaqələrini gücləndirməklə məşğuluq. Güman edirəm ki, nəzərdə tutduğumuz planları həyata keçirə bilsək, AĞ Partiyanın yeni siyasi aktyor kimi siyasi arenadakı çəkisi kifayət qədər artacaq".

**KXCP-nin qurultaya hazırlıq üzrə təşkilat komitəsinin üzvü Xəzər Teyyublu isə məlumat verdi ki, qarşıdakı dövrdə planlarında xeyli işlərin həyata keçirilməsi var:** "Xalq Cümhuriyyətinin 100 illiyi, Əbülfəz Elçibəyin 80 illiyi münasibətilə tədbirlər keçirilməsi nəzərdə tutulub. Qurultaya hazırlıq işləri davam edəcək. Təşkilati işlər də davamlı aparıldığı kimi yenə də aparılacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# 10 mayda əfv olmayacağı dəqiqləşib-bəs 28 mayda?

**Mərhum prezident Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə bağlı 10 mayda əfv sərəncamının verilməyəcəyi dəqiqləşib. Buna səbəb də Əfv Komissiyasının iclaslarını yekunlaşdırmaması və yekun siyahıları prezidentə göndərməməsidir.**





## Əliməmməd Nuriyev: "10 mayda əfvin olmamasının əsas səbəbi..."
## Mirvari Qəhrəmanlı: "Proses çox çətindir"

Amma bununla belə, sərəncamın imzalanacağına olan ümidlər davam edir. 28 mayda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ilə bağlı əfvin veriləcəyi deyilir. Amnistiya aktının qəbulu da gündəmdən düşmür. Doğrudur, parlamentin son iclasında bu məsələ müzakirə edilmədi. Lakin Milli Məclisin qarşıdakı iclaslarında Ombudsman Elmira Süleymanovanın amnistiya təşəbbüsünün müzakirə ediləcəyi və aktın qəbulu gözlənilir.

**Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev** "Yeni Müsavat"a açıqlamasında ayın sonuna qədər əfv sərəncamının veriləcəyini istisna etmədi: "İclaslarımız davam edir. Yaxın vaxtlarda başa çatacaq. Ümid edirəm ki, cənab prezident tərəfindən bu sərəncam imzalanacaq. Bu, prezidentimizin konstitusion səlahiyyətidir. Əfvə düşənlər və bunların dairəsi cənab prezident tərəfindən müəyyən edilir. 10 mayda əfvin olmamasının əsas səbəbi komissiyanın iclaslarının davam etməsidir. Başqa bir səbəb yoxdur. Müraciətlərə hərtərəfli baxılır, geniş araşdırmalar gedir. Ümid edirəm ki, bu ay əfv sərəncamı olacaq. "Əfv sərəncamı haqqında" əsasnaməyə görə müraciətlərə baxılma müddəti var. Daxil olan müraciətə üç ay müddətində baxılmalıdır. Çünki bu müddət ərzində məlumat verilir və müvafiq arayışlar toplanır, rəylər alınır. Bu günlərdə müraciətlər edilirsə, onların gündəliyə çıxarılması mümkün deyil. Hazırda söhbətlər üç ay öncəyə qədər olunan müraciətlərdən gedir. Əfv sərəncamından sonra amnistiya aktının qəbul olunma ehtimallarını yüksək görmürəm. Cinayət Məcəlləsinə edilmiş çoxsaylı dəyişikliklər, həmin dəyişikliklər nəticəsində ayrı-ayrı işlərin məhkəmələrə verilib, məhkəmələr tərəfindən baxılması məsələləri hələ tənzimləndiyi üçün amnistiyanın olacağını dəqiq söyləmək çox çətindir. Çünki həyata keçirilən çoxsaylı tədbirlər qısa müddətdə amnistiyanın qəbulu şanslarını azaldır. Lakin unutmaq olmaz ki, bu, Milli Məclisin səlahiyyətində olan məsələdir. Cümhuriyyətin 100 illiyi ilə bağlı ola bilsin ki, qanunverici orqan aktı qəbul etsin, bu istiqamətdə müəyyən addımlar atsın. Buna ən yaxşı cavabı Milli Məclisin deputatları və komitələri verə bilər".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı hökumətin heç vaxt əfvlə bağlı konkret zamanı açıqlamadığını bildirdi:** "Siz nə vaxtsa eşitmisiniz ki, hökumət konkret tarixdə əfv sərəncamı verəcəyini bəyan etsin. Məsələn, deyiblər ki, Novruz bayramında əfv olacaq, amma konkret günü özlərində saxlayıblar. Ombudsman dedi ki, AXC-nin yüz illiyi ilə bağlı amnistiya olsun. Ona görə bu vəziyyət yaranır ki, sənədə prezident qol çəkir. Heç kim də bu tarixi bilə bilməz. Bundan sonra da konkret tarix barədə bir söz deyilməyəcək. Unutmaq olmaz ki, həm əfv, həm də amnistiya var. Elə məhbuslar var ki, əfv üçün müraciət ediblər, amma amnistiyaya düşə bilərlər. Həmin məhbusun maddəsinə baxmaq lazımdır. Söhbət əfv və amnistiyada yalnız siyasilərdən getmir. Çünki ədalətli və ya ədalətsiz tutulan o qədər məhbus var ki. Amnistiya və ya əfv olarsa kimlərin düşəcəyi məlum olmalıdır. Proses çox çətindir. Müraciətlər də durmadan artır. Məhbusların yaxınları çox aktiv olmalıdır. Hazırda vəkilliklə bağlı da ciddi problemlər var. Bu və ya digər problemlərin may ayına saxlanılmasının prezident seçkiləri ilə əlaqədar olduğunu düşünürəm. 28 mayda əfv olmayacağını düşünmürəm. Çünki bununla bağlı çağırışlar kifayət qədər çoxdur. İnsanların gözünü yolda qoyacaq hadisənin baş verəcəyinə inanmıram. Amnistiya təşəbbüsü bir dəfə qaldırılır. Bu təşəbbüs qaldırılandan sonrakı parlamentin son iclasında deputatlar öz əməkhaqlarını qaldırmaq barədə düşündülər, "əməklərini" buna sərf etdilər. Bu iclasda əhalidə qıcıq doğuracaq təkliflərlə çıxış etdilər. Əsas problemi yaddan çıxardılar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# “Gündəlik Bakı” qəzetinin baş redaktoruna 4 il həbs cəzası verildi

## Prokuror Habil Vəliyevin 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi

**Bakı Ağır Cinayətlər Məhkəməsində “Gündəlik Bakı” qəzetinin baş redaktoru Habil Vəliyevin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

Musavat. com-un məlumatına görə, hakim Fikrət Qəribovun sədrliyi ilə keçirilən prosesdə müdafiə çıxışı edən Habil Vəliyevin vəkili Zaur İbadov müvəkkili barəsində bəraət hökmü çıxarılmasını istəyib.

H.Vəliyev məhkəmədən xahiş edib ki, üzərinə həbs qoyulan əmlakları ailəsinə qaytarılsın.

Daha sonra məhkəmə hökmü elan olunub. Hökmə əsasən H.Vəliyev 4 il müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, prokuror onun 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Qeyd edək ki, H.Vəliyev Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat zamanı tutulub. DTX-nin İctimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumata görə, qabaqcadan əlbir olan bir qrup şəxsin gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə qadınları digər şəxslərlə görüşdürüb münasibətlərinin gizli videoçəkilişlərini aparması, onları şantaj etməsi, habelə ayrı-ayrı şəxslər barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mütəmadi olaraq mətbu orqanlarında dərc etdirib bu fəaliyyətin dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb edilməsi və alınması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması barədə daxil olmuş müraciətlər Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılarkən Azərbaycan Respublikası ərazisində “reket” nəşrlər yaradıb, bu nəşrlərin jurnalistləri adı altında fəaliyyət göstərən bir qrup şəxs və onlarla şəbəkə halında əlbir olan digər şəxslərdən ibarət cinayətkar dəstənin silsilə cinayət əməlləri ifşa edilib, qanunsuz fəaliyyətlərinin qarşısı alınıb.



Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aparılan araşdırmaların nəticələri üzrə hədə-qorxu ilə tələb etmə, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə belə tədbirlərin keçirilməsi faktları üzrə cinayət işi başlanılıb.

Cinayət işi üzrə təqsirləndirilən “Bizim dövr” qəzetinin baş redaktoru Surxay Əliyev, onun müavini Hikmət Nəcəfli və digərlərinin barəsində aparılan ibtidai istintaq başa çatıb. Həmin cinayət işi H.Vəliyevlə bağlı cinayət işindən ayrılıb və hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində baxılır.

❑ **Musavat.com**

# Akif Çovdarovun məhkəməsi qapalı keçirildi



**General Akif Çovdarov və digərləri növbəti dəfə hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Apelyasiya Məhkəməsində həbsdə olan MTN generalı Akif Çovdarov, polkovnik Səlim Məmmədov, Akif Əliyev və Orxan Osmanovun barəsindəki hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə başlayıb.**

Hakim Faiq Qasımovun icraatında olan prosesdə ilkin baxış iclası keçirilib.

A.Çovdarov həkim müşayiətində zala gətirilib. Məhkəmədə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Təqsirləndirilən şəxslərin əmlaklarına qoyulan həbslə bağlı yaxınları da məhkəmə müraciət edib. A.Çovdarovun oğlu Ruslan Çovdarov, qızları Aidə Qasımova, Günay Əmircanova və yoldaşı İbadət Çovdarova məhkəməyə müraciət edərək əmlaklarının üzərindən həbs qərarının götürülməsini istəyiblər.

Ruslan Çovdarov məhkəməyə müraciətində qeyd edib ki, onun sahibi olduğu əmlakda axtarış aparılan zaman ona məxsus pul da evindən götürülüb.

A.Çovdarovun vəkili Kamandar Nəsibov vəsatət qaldıraraq prosesin qapalı keçirilməsini istəyib: “Burada bəzi məsələlər var ki, dövlət sirrini təşkil edir. Ona görə də jurnalistlər zaldan çıxarılsın”. General Çovdarov da vəsatətin təmin edilməsini istəyib.

Məhkəmə qapalı keçirilib və jurnalistlər məhkəmə zalından çıxarılıb.

Qeyd edək ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə A.Çovdarov 12 il, S.Məmmədov 9 il, A.Əliyev 5 il, O.Osmanov isə 4 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **İ.MURADOV,**
**Musavat.com**

# Efirdə daha bir biabırçılıq

## Aydın Xan Əbilov: “Düşünürəm ki, o cür insanların arxasında məmurlar da dayanır...”

**Son vaxtlar efirlərdə aparıcıların, verilişə gələn qonaqların biabırçı davranışları, təhqir və söyüşlər artmaqda davam edir. Sosial şəbəkələrdə, mətbuatda teleaparıcı Elçin Əlibəylinin verilişinə dəvət etdiyi müğənni Maral Tahirqızını təhqir edib qovması barədə müzakirələr səngiməmiş, daha bir biabırçılıq ortaya çıxdı. Belə ki, bu dəfə aparıcı Rövşanə Ağasəfqızının verilişində dava yaşanıb. Verilişdə ekstrasens kimi təqdim edilən Bayram Nurlu və digər ekspertlər qonaq olublar. Kulturoloq Aydın Xan Əbilov ekstrasenslərdən danışıb və onları fırıldaqçı adlandırıb. Onun sözlərinə isə B. Nurlu sərt reaksiya verib:**

“Fırıldaqçı sizsiniz! Məni başqa falçılarla səhv salma. Bir zənglə səni bu kameraların önündən götürdərəm. Şərəf və ləyaqətimi 100 min manata siğortalamışam”.

Kulturoloq isə cavab olaraq “Mən sənin üçün uşaq olmamışam, ay gədə” deyib.

Aparıcı Rövşanə Ağasəfqızı qonaqları sakitləşdirməyə çalışsa da alınmayıb. B. Nurlu qışqırıb, hay-küy salaraq telefonunu istəyib, polisə zəng edəcəyini deyib:

“Deyəcəm indi gəlib səni götürəcəklər”.

Verilişdə yaşanmış qalmaqala görə parapsixoterapist Qalib Dursun efiri tərk edib. Ekstrasens isə “gədə” sözünə görə kulturoloqu məhkəməyə verəcəyini deyib:

“Bu sözə görə ondan 100 min alacam, görəcəksiniz”.

Qeyd edək ki, efirdə yaşanmış bu olay da sosial şəbəkələrin müzakirə predmetinə çevrilib. Əksəriyyət bu cür qalmaqalların yaşanmasına görə televiziya rəhbərliyini qınayıb.

**Məsələ ilə bağlı yazıçı-kulturoloq Aydın Xan Əbilov “Yeni Müsavat”a danışıb:** “Əslində Azərbaycan efirində müəyyən problemlər həmişə dəfələrə tənqid edilib. Bizim və digər mədəniyyət, ictimai xadimlər tərəfindən efirin saflaşması üçün bir çox təkliflər irəli sürülüb.

Bilirsiz ki, bununla bağlı olaraq Teleradio Şurası da yaradıldı, müəyyən işlər görüldü. Hətta bir çox telekanallar cəzalandırılır. Lakin qeyd edim ki, televiziyamız inkişaf mərhələsini keçir. Təbii ki, buna görə müəyyən nöqsanlar olacaq.

Son iki ildə efirlərimizdə nöqsanlar daha çox görünür. Bu əsasən qonaqların kobudluqla verilişdən uzaqlaşdırılması, falçılar, ekstrasenslərin vergili insanlar kimi efirlərə ayaq açmasıdır. Dəfələrə biz bunun əleyhinə olmuşuq və tənqid etmişik. Bilirik bu məsələdə cəmiyyət, mədəni, səviyyəli insanlar bizi dəstəkləyir.

Əslində hüquq-mühafizə orqanları dərhal həmin insanları məsuliyyətə cəlb etməli, onlarla maraqlanmalı, o cür insanların ayaqları efirlərdən kəsilməlidir. Aparıcılar reytinq xətrinə efirlərə dəvət edir. Bunun qarşısı alınmalıdır. Bilirsiz ki, Cinayət Məcəlləsində falçılıqla bağlı müddəalar var.

İkinci bir tərəfdən, efirdə kiminsə qovulması qəti yolverilməzdir. Bəzən görürük ki, bayağı mahnı oxuyan müğənniyə daha çox sevgi, qayğı göstərilir, amma kitabları çıxmış, ziyalı bir insan dilucu təqdim edilir, sanki küçədən gələn, yoldan ötən biri kimi münasibət bəslənilir. Nə qədər belə münasibət olsa, gənclərimizdə ciddiliyə, elmə, intelektuallığa heç vaxt maraq olmayacaq. Beləliklə, tamaşaçı da efirin qarşısından qaçacaq və daha çox xarici telekanallara maraq göstərəcək. Buna görə də televiziya rəhbərləri bu məsələni nəzərə almalıdır”.

**Aydın Xan Əbilov ekstrasensin onu məhkəmə ilə hədələməsinə də mövqe bildirib:** “İnanmıram ki, o, bu cür addım atsın, çünki bu bir piar kimi şeydir. Versə də, razıyam. Hətta dar ağacından da asılmağa razıyam, lakin Nəsimidən, Füzulidən başlamış Axundovda möhkəmlənmiş və keçmiş sovet dövründə daha da çoxalmış yalançı, kimyagər, ”vergili" insanlarla bağlı mübarizəmi hər zaman davam etdirəcəm və bunun haqq işi olduğunu hesab edirəm. Heç bir şey mənim qarşımı ala bilməz.

Düşünürəm ki, o cür insanların arxasında məmurlar da dayanır. Onlarla da mübarizə aparmağa hazıram. Ən azı haqq bizim tərəfimizdədir"

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

**Elan**

**Ağdaş şəhər sakini Məhərrəmov Qabil Arif oğlunun adına olan JN №3350A saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

**

**Ağdaş şəhər sakini Məhərrəmov Arif Ziyad oğlunun adına olan JN №3346A saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 101 (6990) 9 may 2018

**"1940-cı ildə Bakıda Tibb Texnikumundan məzun oldum. Texnikumda hərbi kafedramız vardı. Məktəbi qurtaranda bizə diplomla bərabər, kiçik leytenant rütbəsi və hərbi bilet də verdilər. Hərbi biletimin arxasında yazılmışdı ki, müharibə olsa, ikinci gün Bakı Hərbi Komissarlığına müraciət etməliyəm. Texnikumu bitirəndə nişanlı idim. 1941-ci ilin yanvarında toyum oldu, 5 ay sonra isə II Dünya müharibəsi başladı. Həyat yoldaşım Məhəmmədlə birlikdə hərbi komissarlığa gedib, könüllü olaraq cəbhəyə getmək istədiyimizi dedik. O zaman Məhəmməd Montin adına Maşınqayırma Zavodunun direktoru idi. Müharibə başlayanda zavod öz profilini dəyişib, hərbi təyinatlı silah-sursat istehsalına keçdi deyə, ona bron verdilər. Ona görə də Məhəmməd Bakıda qaldı, mən isə şəfqət bacısı kimi cəbhəyə yollandım".**





Fatma Hüseyn qızı Səttarova

# "Toyumdan 5 ay sonra müharibə başladı" - 96 yaşlı veteran

## "Biz müharibəyə 27 qız getmişdik, 15-i həlak oldu. Hər dəfə cəbhədən qara xəbər gələndə anamın nələr çəkdiyini təsəvvür edin..."

*II Dünya müharibəsi veteranı 96 yaşlı Fatma Səttarova ilə onun evində üzbəüz əyləşmişəm. O, 1922-ci ildə Bakıda dünyaya gəlib. Ailənin tək övladı olsa da, 19 yaşında müharibəyə yollanıb. Müharibə illərindən heç bir şəkli qalmadığını deyir. Bir neçə il əvvəl mənzili qarət olunanda ordenləri ilə birgə şəkilləri, müharibədən ailəsinə göndərdiyi üçbucaq məktubları da oğurlanıb. İndi müharibə illəri dəhşəti ilə birgə, sadəcə, onun xatirələrində qalıb.*

- Sentyabrın əvvəli idi. Bizi əsgərlərlə birgə eşelonlarla cəbhəyə yola saldılar. Moskva ətrafındakı döyüşlərə gəlib çıxdıq. Briqadada 2 tibb bacısı və 3 sanitar vardı. Başımıza bombalar yağırdı. Çox çətin idi. Naz-qəmzə ilə böyümüş 19 yaşında qızcığaz birdən-birə müharibənin ortasına düşmüşdü. Hara baxırdım, qan görürdüm. Vəziyyət çox gərgin idi. Almanlar az qalmışdı Moskvanı alsınlar. Sonra Pantinov adında zabit böyük ordu yaratdı və almanları Moskva ətrafından qovmağa başladılar. Ordu döyüşə-döyüşə Leninqrada gəlib çatdı. Almanlar Leninqradı mühasirəyə almışdılar. Şəhərə cəmi iki yol qalmışdı: Ladoqa gölü və bir də havadan. Biz Ladoqa gölü ilə hərəkət edib şəhərə daxil olduq. Alman təyyarələri hər tərəfi bombalayırdı. Əsgərlər təkcə bombardmandan deyil, həm də aclıqdan ölürdülər. Bir də baxırdın ki, yeridiyi yerdə kimsə yıxılıb öldü. Bizə gündəlik 50 qram qara çörək və jımıx verirdilər. 4 ay yarım Leninqradda blokadada qaldım. Aclıqdan bir dəri, bir sümük qalmışdım. Artıq 20 yaşım vardı. Müharibə ilə bərabər mən də böyümüşdüm. 19 yaşındakı qızcığaz deyildim. Təcrübəli tibb bacısı idim. Ayağımda ağır çəkmələr, çiynimdə özümdən ağır çanta bir səngərdən digərinə qaçırdım. Sovet ordusu blokadanı açandan sonra biz yaralıları balaca gəmilərlə Ladoqa gölü vasitəsilə Leninqraddan çıxarmağa başladıq. Məni Stalinqrad cəbhəsinə göndərdilər. Ordu Berlinə tərəf irəliləyirdi. Blokadada olduğum müddətdə həddindən artıq zəifləmişdim, Macarıstana çatanda xəstələndim və ordudan tərxis olundum.





**1945-ci ilin fevralında Fatma Səttarova Bakıya, ailəsinin yanına geri dönür. 3 ay sonra mayın 9-da sovet ordusu faşizmin üzərində qələbə çalır.**

- Bilirsən, qızım, müharibədən danışmaq mənə əzab verir. O günləri xatırlamaq belə istəmirəm. Allah o dəhşətləri kimsəyə yaşatmasın! Müharibəni unutmaq da olmur. 73 ildir qurtarıb, hələ də ondan danışırıq. Müharibənin zülmünü yaşayan bilər ancaq...

**Susur. Baxışlarımız toqquşur. Müharibə illərində çəkdiyi əzab gözlərindən oxunur. Baxışlarımı yerə salıram.**

- Moskva ətrafında ağır döyüşlərdən birində səngərdən inilti səsi gəlirdi. Baxdım, cavan əsgərdir. Güllə başından dəymişdi. Çox qan itirmişdi. Səngərə endim ki, yarasını sarıyım, başımın üstündən alman tankı keçdi. Tank keçəndə səngərin üstündəki daşlar başıma töküldü. Qorxumdan tərpənmədim. Tanklar gedəndən sonra sanitarı çağırdım, yaralını götürdü. Ordu irəliləyəndən sonra baxırdın ki, yaralılar torpağın üstünə qarışqa kimi səpələnib. Qolu qopan kim, ölən kim?

***- Evin tək övladı olmusunuz. Müharibəyə yollananda ailəniz necə qarşıladı? Əsas da həyat yoldaşınız?***

- O vaxt ayrı cür ola da bilməzdi. Mən şəfqət bacısından əlavə, həm də zabit idim. Getməliydim. Üstəlik, ailəlikcə komsomolçu idik. İstər bir övlad olsun, istər on, müharibə müharibədir, hamı bir nəfər kimi getməliydi. Müdafiə naziri Zakir Həsənovla görüşdə də demişəm ki, məni tez-tez cəbhə bölgələrinə aparsın. Gedim, əsgərlərimizlə söhbət edim, ürək-dirək verim. Qucaqladı, öpdü məni. Son vaxtlar səhhətimlə bağlı gedə bilmirəm. Ona qədər bir neçə dəfə cəbhə xəttində olmuşam. Tərtərdə, Füzulidə. Mən başqa mühitdə böyümüşəm. Vətənə canım fəda! Biz müharibəyə 27 qız getmişdik, 15-i həlak oldu. Hər dəfə cəbhədən qara xəbər gələndə anamın nələr çəkdiyini təsəvvür edin... Yaralılarla məktub göndərirdim. Cəbhəyə gələn olanda evdəkilər məktub yollayırdılar. 2-3 aydan bir məktub gələrdi, ya gəlməzdi. Telefon əlaqəsi də yox idi. Həyat yoldaşımla 4 ildən də çox ayrı qaldıq. Müharibədən qayıdandan sonrakı görüşümüzü dillə təsvir etmək mümkün deyil. Yazıq anam, hər namazında mənim üçün dua etmişdi ki, sağ qayıdım.

**Müharibədən sonra yeni həyata başladığını deyir.**

- Müharibədən qayıdanda 40-41 kilo olardım. Çox arıqlamışdım. Toyda alınan paltarlar əynimə böyük olurdu. Bir neçə aya özümü topladım. Rəhmətlik həyat yoldaşım da çox dəstək oldu. Mehriban və qayğıkeş insan idi. Həmin ilin dekabrında ilk övladım dünyaya gəldi.

***- Sevib ailə qurmuşdunuz?***

- Bizim vaxtımızda nə sevmək? Başım dərs oxumağa qarışmışdı. Məhəmməd qonşumuz idi. Ata-anası elçi gəldilər, ailəm də verdi, getdim. Harada qalmışdım? Hə! Müharibədən bir qədər sonra məni və digər veteranları Stalin şəxsən qəbul etdi. 28 yaşım olanda da birinci katib Mircəfər Bağırov bizi qəbul etdi və göstəriş verdi ki, bizi imtahansız ali məktəbə qəbul etsinlər. İndiki Bakı Dövlət Universitetinin iqtisadiyyat fakültəsinin axşam növbəsində təhsil almağa başladım. Rəhmətlik Heydər Əliyevlə bir dövrdə oxumuşam. O, qiyabi tarix fakültəsində oxuyurdu. İldə 1-2 dəfə imtahanlarda görüşürdük. Onda hələ evlənməmişdi. Zabit formasında gəlirdi. Hündür, yaraşıqlı gənc idi. Sonralar da görüşəndə universitet xatirələrimizdən danışardıq.

***- Nə əcəb tibbi seçmədiniz?***

- İstəmədim. O qədər qan görmüşdüm ki, bəzən bint də görəndə ürəyim bulanırdı. İqtisadiyyatı seçdim. Həm də işləyirdim. 55 il vəzifədə olmuşam. Bakı Şəhər İaşə İdarəsinin rəhbəri olmuşam. Həyat yoldaşımı tez itirdim. Cəmi 25 il birgə yaşadıq. Evin tək övladı olduğumdan nə bacım vardı, nə qardaşım. Çox çətinlik çəkdim. 4 uşağı tək böyütmək asan deyil. Şükür bu günümə!

***- Uşaqlarınız müharibədə olduğunuzu öyrənəndə necə reaksiya verdirlər?***

- *(Gülür).* Balaca olanda müharibə kinolarına baxıb ağlayırdılar ki, ana, sən də ordaydın? Pis olmasınlar deyə, deyirdim, yox, mən başqa yerdəydim.

Fatma xanımın böyük oğlu Xarici Dillər Universitetini, ortancıl və kiçik oğlu isə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirib. Ortancıl oğlu indi ABŞ-da yaşayır. Qızı isə indiki Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. 96 yaşlı İkinci Dünya müharibəsi veteranının 4 övladdan 11 nəvəsi, 25 nəticəsi var. Yaşadığı bütün çətinliklərə rəğmən taleyindən razı olduğunu deyir.

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**
**Fotolar ELÇİNİNDİ**

YENİ MÜSAVAT

Son səhifə

N 101 (6990) 9 may 2018

# Baş nazirə ayaqqabının içində şirniyyat verdilər

Yaponiya baş naziri Şinzo Abe və həyat yoldaşı Akie İsrailə gerçəkləşdirdikləri rəsmi ziyarət zamanı İsrailin baş naziri Binyamin Netanyahu və həyat yoldaşı Saranın evində şərəflərinə verilən axşam yeməyində iştirak ediblər. Yaponiya baş naziri Abenin, Netanyahunun Qüdsdəki evində verilən yeməkdə məşhur rus şef aşpaz Segev Moşenin metaldan hazırlanmış ayaqqabı içində Abe cütlüyünə təqdim etdiyi şirniyyata görə narahat olduğu açıqlanıb.



"Netanyahunun evindəki ziyafətdə məşhur rusiyalı dirijor Sergey Moşenin metaldan düzəldilmiş ayaqqabıda Abe cütlüyünə şirniyyat təqdim etməsindən sonra narahatçılıq yarandı. Masaya ayaqqabının qoyulması kimi bir mədəniyyət dünyanın heç bir yerində yoxdur. Moşenin tam olaraq nə düşündüyünü və nə deməyə çalışdığını anlaya bilmirik. Bunun komik olduğunu da düşünürük. Bu durumun baş nazirimiz üçün təəssüfedici olduğunu düşünürük", - yapon diplomat vurğulayıb.



## Əgər saçınız tez ağarırsa, xəstəlikləriniz var

Bəzi insanların saçı həddən artıq tez ağarır. Hər saç teli rəngini "melanosit" adlanan və rəng piqmenti ifraz edən hüceyrələrdən alır. Bu hüceyrələrin funksiyasını itirməsi, piqment azalması, ya da yox olması saçlarda ağarma ilə nəticələnir. Aparılan bəzi araşdırmalarda saç ağarmasının ürək-damar xəstəlikləri ilə əlaqəsi olduğu bildirilib. Buna görə erkən saç ağarması problemi olanların kardioloji müayinədən keçməsi tövsiyə edilir.

Erkən saç ağarması olan insanlarda sümük azalması da görülə bilər. Sümük azalması (osteopeni) olan kişilərdə bunun qarşısını almaq üçün tədbirlər görülməlidir.



## Nəm salfetka qadağan olunacaq

İngiltərədə plastik çirkliliyə qarşı başlanan mübarizə çərçivəsində 2020-ci ildən etibarən plastik qabda su satışı ilə yanaşı, nəm salfetkaların da istehsal və satışı qadağan ediləcək. Qərarın izahatı olaraq isə göstərilir ki, nəm salfetka təbiətdə uzun müddət yox olmur və qalır. Bundan başqa, yaş salfetkaları tualetə atanda kanalizasiya sistemində tıxaclara da səbəb olur.

# Çox çörək yemək qadınlarda sonsuzluq riskini artırır

Kolumbiya Universitetinin professorları çox çörək yeyən qadınlarda sonsuzluq riskinin artdığını açıqlayıblar. Hamilə qala bilməyən 188 qadının iştirak etdiyi araşdırmada qlutenli qidalar yeyən qadınlarda sonsuzluq riskinin 6 dəfə çox olduğu müəyyənləşdirilib.

Qlutenlə ən zəngin qidanın çörək olduğunu bildirən alimlər ana olmaq istəyənlərə çörəkdən az istifadə etməyi məsləhət görüblər.

Alimlərin sözlərinə görə, həddən artıq qluten qəbul edən kişilər də eyni problemlə üzləşirlər. Onların ata olmaq şansı 30 faiz azalır.

Çörəyin sonsuzluqla yanaşı, uşaqsalmaya, menstruasiya ilə bağlı problemlərin yaranmasına səbəb olduğu deyilir.

Qluten maddəsinin bəzi kosmetik vasitələrin tərkibinə də vurulduğunu bildirən həkimlər qadınların xüsusilə dodaq boyalarına qarşı diqqətli olmalarını tövsiyə edirlər.





## Pələng 3 yaşlı uşağı dayəsinin gözü önündə yedi

Uqandada yerləşən Kraliça Elizabet Parkında 3 yaşlı bir uşağı pələng parçalayaraq yeyib. Hücum zamanı uşağı dayəsi gəzintiyə çıxarıbmış. Parkın təmsilçisi, sözçü Bəşir Hangi deyib ki, hadisə cümə günü olub və dayə baş verənləri ancaq müşahidə etməklə kifayətlənib. Pələng üç yaşındakı uşağı tutub, otluqlara doğru sürükləyib. Uşağın dəhşətli çığırtıları bütün parkı bürüyübmüş. Onun kəllə sümüyü növbəti gün tapılıb. Yetkililər pələngin axtarışlarına başlayıblar. Bir dəfə insan ətinin dadını alan heyvanın bundan sonra insan ovlamaq istəməsi də səslənən təxminlər sırasındadır. Bunun yarada biləcəyi təhlükənin qarşısını almaq üçün pələngin yaxalanması şərt sayılıb.




**QOÇ** - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

**BUĞA** - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

**ƏKİZLƏR** - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın.

**XƏRÇƏNG** - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı problemləriniz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

**ŞİR** - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək.

**QIZ** - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

**TƏRƏZİ** - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmağa çalışın.

**ƏQRƏB** - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

**OXATAN** - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma riskdən uzaq olmalısınız.

**OĞLAQ** - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olardı ki, nahardan sonra işə ara verib bir qədər dincələydiniz. Çünki axşam saatlarında astral bədəniniz zəifləyə bilər.

**SUTÖKƏN** - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

**BALIQLAR** - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək iqtidarında deyilsinizsə, onda belələrindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra səfərə çıxın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadının ayaqqabısı onun xarakterinə işarədir

Qadınların geyindiyi ayaqqabılar birbaşa onun xarakteri ilə bağlıdır. Alimlər müəyyənləşdiriblər ki, bu, qadının psixoloji durumu ilə də bağlıdır. Əgər xanım yalnız hündürdaban ayaqqabı geyinirsə, demək, onu ətrafdakıların fikri cox maraqlandırır. Ətrafdakılar onu bəyənsin deyə, hündürlükdə olmağı sevir. Belə bir fikir də vardır ki, bu cür xanımlar insanlardan daha üstdə olmağı sevir ki, onları diqqətlə izləyə bilsin. Onlar elit təbəqənin sakinləri sayılan, özünə güvənən, əsl xanım və yaxşı əlaqələr qurmağı bacaranlardır. Platforma geyinməyi sevən xanımlar açıq sözlü, şəxsi fikirli olurlar. Onları ətrafdakıların fikri qətiyyən maraqlandırmaz. Lazım olmasa belə, öz bildiklərini edər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100